# Terror:
# hadisələr, faktlar, sübutlar

**Bakı, 2016**

«Terror: hadisələr, faktlar, sübutlar»
Bakı, «MBM», 2014, Xətt Nəşriyyatı, 2016, 100 səh.

Kitabda Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı ərazi iddiaları ilə bağlı 1988-ci ildən etibarən yenidən alovlanan Dağlıq Qarabağ münaqişəsi prosesində erməni terrorçu-quldur dəstələri tərəfindən həm intensiv hərbi əməliyyatların getdiyi ərazilərdə, həm də həmin ərazilərdən kənarda dinc azərbaycanlılara qarşı həyata keçirilmiş terror əməlləri araşdırılmışdır. Bu kitabda ilk dəfə olaraq bütün qəsdən adam öldürmə, quldurluq, silahlı basqın və digər cinayətlər və onların nəticələri barədə deyil, yalnız terror əməlləri törədilməsi faktları ilə bağlı müxtəlif vaxtlarda başlanmış cinayət işlərində toplanmış materiallar öz əksini tapmışdır.

Kitab politoloqlar, tarixçilər, diplomatlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN: 978-9952-29-098-1

Bu kitab "HERTFORDSHIRE PRESS" nəşriyyatında (İngiltərə, London, 2015) ingilis dilində çap olunan "Terror: Events, Facts, Evidence" nəşrinin azərbaycan dilinə tərcümə olunmuş variantıdır.

© Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası

**Məsləhətçi:**
**Xanlar Vəliyev** – Azərbaycan Respublikasının hərbi prokuroru, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının üzvü

**Tərtibçi:**
**Eldar Səmədov** – Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qrupu rəhbərinin müavini, AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun dissertantı.

**Redaktor:**
**Rauf Məmmədov** – Azərbaycan Respublikası Hərbi Prokurorluğunun xüsusi istintaq şöbəsinin rəisi.

# Mündəricat

Ön söz.........................................................................................5

Giriş ..........................................................................................7

1. Erməni terrorçu-quldur birləşmələri tərəfindən
Dağlıq Qarabağ və ətraf rayonlarda törədilmiş
terror əməlləri: ....................................................................... 24

2. Erməni terrorçu dairələri və birləşmələri tərəfindən
hərbi əməliyyatların getdiyi Dağlıq Qarabağ və
cəbhə xəttindən kənar ərazilərdə törədilmiş
terror əməlləri: ....................................................................... 49

3. Erməni terrorçu-quldur birləşmələri tərəfindən
törədilmiş terror əməllərinə aid fotofaktlar: ............... 76

4. Xocalı əhalisinə qarşı soyqırımının
törədilməsini təsdiq edən fotofaktlar: .......................... 87

Biblioqrafiya ....................................................................... 95

# Ön söz

Müasir dövrdə insanlıq bir çox sahələrdə yüksək nailiyyətlər əldə etmiş mütərəqqi və sivil toplum sayılır. Bununla yanaşı bəşəriyyət, müəyyən əraziləri işğal etmək məqsədilə qəddarcasına törədilən qətllərin nəticəsi kimi, etnik qrupların düşünülmüş və ya sistematik şəkildə tam və yaxud qismən məhv edilməsinin şahidi olmuşdur. Bu qəddar, qeyri-insani, ləyaqəti alçaldan rəftar və cəza növləri dünya ictimaiyyətinin diqqətinə çatdırılmış və bu cinayətləri törədənlər bir qayda olaraq ədalət məhkəməsinə verilmişlər. Lakin bütün bunlara baxmayaraq, beynəlxalq aləm tərəfindən bu tip hadisələrin hamısına hələ də qiymət verilməmiş, belə cinayətləri planlaşdırıb törədənlər məsuliyyətə cəlb edilərək layiqli cəzalarını almamışlar.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının yeni tərkibinin təsdiqi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 1 mart 2001-ci il tarixli Sərəncamında Ermənistan silahlı qüvvələri tərəfindən azərbaycanlılara qarşı törədilmiş terror, soyqırım və etnik təmizləmə faktları barədə tarixi-hüquqi sənədlərin toplanılması və sistemləşdirilərək dünya ictimaiyyətinin diqqətinə çatdırılması işi qurumun qarşısında ayrıca bir vəzifə kimi müəyyənləşdirilmişdir.

Kitab XX əsrdə baş vermiş cinayətlərin sistematik və kütləvi şəkildə törədilməsinin sənədli sübutudur. Nəşr insan oğurluğu, minlərlə kişi, qadın, uşaq və yaşlıların qəddarcasına qətli, evlərin, tibb müəssisələrinin, kənd təsərrüfatı obyektlərinin və nəqliyyat qovşaqlarının viran edilərək dağıdılması faktlarını əhatə edir. Bu hadisələrin nəticəsində Azərbaycana dəymiş ziyan bir neçə milyard dollarla qiymətləndirilir.

Belə ağır cinayətlərdən biri Xocalıda törədilmişdir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə şəhəri işğal etmişlər.

Nəticədə 613 nəfər dinc sakin qətlə yetirilmiş, onlardan 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri qocalardır. 1275 mülki şəxs girov götürülmüşdür. Onlardan 150 nəfərin taleyi indiyə qədər məlum deyil.

Xocalı soyqırımı zamanı bütövlükdə 487 nəfər şikəst olmuş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Ermənilər tərəfindən törədilmiş bu qanlı qətliamın məqsədi Azərbaycan Respublikasının ərazisində ikinci erməni dövlətinin yaradılması olmuşdur.

Bu nəşrin əhəmiyyətini layiqincə qiymətləndirməmək mümkün deyil. Dünya ictimaiyyəti bilməlidir ki, belə cinayətlər, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün bəşəriyyətə qarşı yönəlmişdir.

*– Professor Nabil Ayad*
*Diplomatiya və Dövlət İdarəçilik*
*Akademiyasının direktoru*
*Lafboro Universiteti (London)*

# Giriş

Güney Qafqazda yerləşən Azərbaycan Respublikası sürətlə inkişaf edən sabit ölkələrdəndir. Lakin, XX əsrin sonlarında, 1988-ci ildən başlayaraq Azərbaycan yenidən Ermənistan Respublikasının hərbi təcavüzünə məruz qalmışdır.

Nəticədə Azərbaycan ərazilərinin **beşdə biri** işğal edilmiş, **20 mindən** çox insan qətlə yetirilmiş, **50 mindən** artıq adam yaralanmış və şikəst olmuşdur. **Bir milyondan artıq** insan **25 ildən** çoxdur ki, qaçqın və məcburi köçkün şəraitində yaşayaraq Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırım siyasətinin qurbanı olmuş, elementar insan haqlarından məhrum edilmişdir[1].

İşğal nəticəsində **900-dən artıq** yaşayış məntəqəsi talan edilmiş, yandırılmış və dağıdılmış, **6 min** sənaye, kənd təsərrüfatı müəssisəsi və digər obyektlər məhv edilmiş, ümumi yaşayış sahəsi **9 mln** $\mathbf{m^2}$**-**dən artıq olan **150 min** yaşayış binası, **4366** sosial mədəni obyekt, eyni zamanda **695** tibb ocağı dağıdılmışdır. İşğal edilmiş ərazilərdə kənd təsərrüfatı sahəsi, su təsərrüfatı, hidrotexniki qurğular, bütün nəqliyyat və kommunikasiya xətləri tam sıradan çıxarılmışdır. Dağıntılar nəticəsində iqtisadiyyata **300 milyard** ABŞ dollarından artıq ziyan dəymişdir[2].

---

[1] http://mfa.gov.az/index.php?options=content&id=831.
[2] http://www.human.gov.az/.

İşğal olunmuş Azərbaycan ərazilərində **927** kitabxana, **464** tarixi abidə və muzey, **100**-dən çox arxeoloji abidə və s. dağıdılmışdır. Talan edilmiş muzeylərdən **40 mindən** çox qiymətli əşya və nadir eksponat oğurlanmışdır[3]. Belə ki, Kəlbəcər tarix diyarşünaslıq muzeyi yerlə yeksan olunduqdan sonra muzeyin ekspozisiyasına daxil olan nadir qızıl və gümüş zinət əşyaları, ötən əsrlərdə toxunmuş xalçalar Ermənistana daşınmışdır. Şuşadakı tarix muzeyinin, Ağdamdakı çörək muzeyinin, Zəngilandakı Daş Abidələr muzeyinin də taleyi belə olmuşdur. Oğurlanmış və məhv edilmiş bu tarixi-mədəni sərvətlərin dəyərini müəyyənləşdirmək, pulla qiymətləndirmək mümkün deyildir. Bir sözlə, Ermənistan Respublikası «Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında» Haaqa Konvensiyasının və «Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında» Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur.

Məhz təcavüzkar və militarist siyasət yeritməsi, terrorizmi və separatizmi dövlət səviyyəsində dəstəkləməsi Ermənistanı bu gün bölgədə uğurla həyata keçirilən, buradakı dövlətlərin rifahına və inkişafına yönələn bütün siyasi və iqtisadı layihələrdən kənarda qoymuşdur. Bu isə Ermənistan Respublikası vətəndaşlarının son dərəcə ağır sosial problemlərlə əlaqədar ölkəni kütləvi şəkildə tərk etməsi ilə müşayiət olunur.

Erməni terrorundan əziyyət çəkən bir ölkə kimi Azərbaycan Respublikası bu sahədə beynəlxalq əməkdaşlığa, münaqişənin sülh yolu ilə həllinə üstünlük verir, tərəfdar çıxdığı beynəlxalq sənədlərə və dövlətlərarası müqavilələrə əsasən, terrorçuluğa

[3] http://www.human.gov.az/.

qarşı mübarizədə xarici dövlətlərlə, onların aidiyyəti orqanları ilə, habelə terrorçuluğa qarşı mübarizə aparan beynəlxalq təşkilatlarla əlaqələrini genişləndirir. 2001-ci il sentyabrın 11-də ABŞ-da törədilmiş terror əməllərindən sonra isə Azərbaycan Respublikası antiterror koalisiyasına qoşulan ilk ölkələrdən biri olmuş və beynəlxalq antiterror koalisiyasının fəal üzvü kimi terrorizmə qarşı ardıcıl mübarizə aparır.

Beynəlxalq terrorizmin əsas tərkib hissələrindən biri olan erməni terrorunun 100 ildən artıq fəaliyyət təcrübəsi və tarixi olsa da, bir termin kimi "Erməni terroru" ilk dəfə Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin aylıq bülleteninin 1982-ci ilin avqust sayında rəsmi ifadə edilmişdir **(Corsun, Andrew, Armenian Terrorism: A Profile, U.S. Department of State Bulletin, No. 82, (Washington, D.C., August 1982), pp.31-35.).**.[4] Buna səbəb həmin dövrdə erməni terror təşkilatlarının aktivləşərək Livanda çoxsaylı terror törətməsi idisə, digər əsas səbəb isə bu terror əməllərinin bilvasitə həmin dövrdə humanitar məqsədlə bölgədə yerləşdirilmiş Amerika hərbçilərinə qarşı yönəlməsi olmuşdu.

Erməni terrorunun tarixi mütəşəkkil cinayət təzahürü kimi 19-cu əsrin sonlarına gedib çıxır. 1885-ci ildə Türkiyənin Van şəhərində "Armenakan", 1887-ci ildə İsveçrənin Cenevrə şəhərində "Hnçak", 1890-cı ildə isə Tiflisdə (Tbilisi) "Daşnaksütyun" partiyalarının yaradılması ilə ermənilər mütəşəkkil və sistemli terror fəaliyyətinə başlamış oldular. Siyasi partiya adı altında yaradılmış bu terror qurumlarının əsas məqsədi "Böyük Ermənistan" yaratmaq idi. Bu ideyanın gerçəkləşməsi isə yalnız terror və zorakılıqdan keçirdi. Əslində zorakılıq və

[4] http://www.rizvanhuseynov.com/2014/01/blog-post_20.html?spref=tw.

aqressivlik erməni etnopsixologiyasının, etnofəlsəfəsinin və etnoideologiyasının vacib tərkib hissəsi kimi onların müəyyən dairələri tərəfindən əsrlər boyu formalaşdırılmışdır.

Dünya terror tarixində metroda törədilmiş ilk hadisə ermənilər tərəfindən 8 yanvar 1977-ci il tarixdə Moskva metropolitenində həyata keçirilmişdir. Bu terrorun əsas məqsədi Azərbaycan Respublikasının Naxçıvan və Dağlıq Qarabağ bölgələrinin Ermənistana birləşdirilməsi tələbi idi. Moskva metrosunun İzmaylova və Pervomayskaya stansiyaları arasında hərəkət edən qatarda əldəqayırma partlayıcı qurğunun işə düşməsi nəticəsində 7 nəfər ölmüş 32 nəfər yaralanmışdır. Hadisəni törətməkdə təqsirli bilinən 3 erməni terrorçu - Akop Stepanyan, Stepan Zatikyan və Zaven Baqdasaryan SSRİ Ali Məhkəsimənin hökmü ilə güllələnmə cəzasına məhkum edilmişlər[5].

Ermənilər tərəfindən beynəlxalq terrorizmə gətirilmiş daha bir yenilik isə 26 avqust 1896-cı il tarixdə Daşnaklardan ibarət 26 terrorçu tərəfindən Osmanlı bankının tutulması hadisəsi olmuşdur. Məhz bu aksiya zamanı dünya terror tarixində girovların götürülməsi faktından istifadə edilərək ilk dəfə dövlətə qarşı siyasi tələblər irəli sürülmüşdür[6].

1919-cu ilin oktyabrında "Daşnaksütyun" partiyası İrəvanda keçirdiyi IX qurultayında **Nemezis»** adlandırdığı yeni bir cinayət əməlinə start verdi. Aksiyanın məqsədi "erməni soyqırımı"nı və guya Bakıda 1918-ci ildə erməni əhalisinin qətlini təşkil etmiş şəxslərdən qisas alınması idi. Əməliyyatın

---

[5] http://d-pankratov.ru/archives/5933. http://ru.wikipedia.org/wiki/Серия_террористических_актов_в_Москве_(1977).
[6] http://www.ermenisorunu.gen.tr/turkce/sorun/isyan7.html.

adı, qədim yunan intiqam ilahəsi «Nemezidanın» adından götürülmüşdür.

Qətlinə qərar verilmiş 650 nəfərin arasında, həm Osmanlı imperiyasının, həm də Azərbaycan Demokratik Respublikasının keçmiş rəhbərləri var idi. Onların içərisində 41 nəfər, «əsas günahkarlar» elan edilmişdi. Əməliyyata rəhbərlik üçün xüsusi orqan və fond da yaradılmışdır (orqanın rəhbəri Ermənistan respublikasının ABŞ – dakı elçisi Armen Qaro idi). İnformasiyanın toplanmasında özünü türk tələbəsi kimi qələmə vermiş Qraç Papazyan aktiv iştirak etmişdir. Qətlin törədilməsi üçün 3–5 nəfərdən ibarət qruplar yaradılırdı. Qrup qətlə yetiriləcək şəxsləri izləməklə məşğul olur, sonra isə qrup üzvlərindən biri qətli törədirdi. Əgər öldürmək istədikləri şəxsi cangüdənlər qoruyurdusa, onda qətli iki-üç nəfər törədirdi. Əməliyyatlar iki əsas mərkəzdən – «Çakatamart» (İstanbul) və «Droşak» (Boston) qəzetlərinin redaksiyalarından idarə olunurdu.

"Nemezis" çərçivəsində 1920-ci ildə Azərbaycan Demokratik Respublikasının keçmiş Baş naziri Fətəli xan Xoyski (hadisə zamanı keçmiş ədliyyə naziri Xəlil bəy Xasməmmədov yaralanmışdır), 19 iyul 1920-ci il tarixdə Azərbaycan parlamentinin keçmiş sədr müavini Həsən bəy Ağayev Tiflisdə, 15 mart 1921-ci ildə Osmanlı imperiyasının keçmiş daxili işlər naziri və sədr-əzəm Tələt paşa Berlində, 5 dekabr 1921-ci ildə Osmanlı imperiyasının keçmiş sədr-əzəmi Səid Hilmi paşa Romada (qətlin təşkilatçıları arasında Ermənistanın Romadakı keçmiş səfiri Mikael Vartanyan da olmuşdur), 17 aprel 1922-ci ildə keçmiş Trabzon valisi Cəmal Əzim və "Təşkilati Məxsusə"nin yaradıcısı Bahəddin Şakir, həmçinin

Şakirin cangüdəni Berlində, 19 iyul 1921-ci ildə Azərbaycanın keçmiş daxili işlər naziri Behbud xan Cavanşir İstanbulda, 25 iyul 1922-ci ildə Osmanlı imperiyasının keçmiş hərbi dəniz qüvvələri naziri Camal paşa Tiflisdə qətlə yetirilmişlər. Hətta, 1920-ci ildə İstanbulda bu qruplar tərəfindən türklərlə əməkdaşlıqda günahlandırılan bir neçə erməni də qətlə yetirilmişdir[7].

Daşnaksütyunun "qisasını" almaq istədiyi 1918-ci ilin mart ayında Bakı şəhərində və Azərbaycanın digər yaşayış məntəqələrində əslində nə baş vermişdir?

1918-ci ilin martında Rusiya bolşeviklərinin rəhbəri Vladimir Lenin bolşevik Stepan Şaumyanı Qafqaz fövqəladə komissarı təyin edərək Bakıya göndərmişdir. Bolşeviklər Bakıda hakimiyyəti ələ keçirmək adı ilə erməni daşnaklarının silahlı qüvvələrinin gizli niyyətləri üçün şərait yaratmışlar. Martın 31-də Bakı şəhərində azərbaycanlıların kütləvi qırğını başlamışdır. Stepan Şaumyanın etirafına görə, dinc azərbaycanlıların qırğınında Bakı Sovetinin altı min silahlı əsgəri, eyni zamanda «Daşnaksütyun» partiyasının 3-4 minlik silahlı dəstəsi iştirak etmişdir[8].

Üç gün davam edən qırğın zamanı erməni terrorçu-quldur dəstələri bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar etmiş, əhalini uşaqdan böyüyədək qətlə yetirmişdir. Həmin müddətdə (30 mart - 01 aprel) "yalnız şəhərin özündə **12 minədək** azərbaycanlı öldürülmüş, əhalinin yarısı isə qaçmağa məcbur olmuşdur"[9].

[7] http://az.wikipedia.org/wiki/Nemezis.
[8] Vilayət Quliyev. Azərbaycanda erməni zülmü. Bakı "Ozan" 1999. səh. 18.
[9] J. McCarthy, C. McCarthy. Turks and Armenians . Amanual on the Armenian Question. Committee on Education Assembly of Turkish American Associations. Washington, D.C. 1989, page 61.

Həmin dəhşətli günlərin şahidi olmuş Kulner familiyalı bir alman, 1925-ci ildə Bakı hadisələri barədə bunları yazmışdır: «Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 müsəlman cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları kəsilmişdir. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər»[10].

Ümumiyyətlə, 1918-ci ilin mart-aprel aylarında erməni terrorçu-quldur dəstələri tərəfindən Bakıda, Şamaxıda, Qubada, Lənkəranda, Muğanda, və Azərbaycanın digər yerlərində 50 min nəfərə qədər azərbaycanlı öldürülmüşdür[11]. Cənub Qafqazda törədilmiş iki soyqırım zamanı (1905-1907-ci illər, 1918-1920-ci illər) qətlə yetirilənlərin sayı isə yüz minlərlə olmuşdur.

Mart qırğını zamanı Bakı şəhərinin daha bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış **57** azərbaycanlı qadınının meyiti tapılmışdır (*Fövqəladə İstintaq Komissiyasının materiallarından*) [12].

İrəvan quberniyası, Şərur-Dərələyəz, Sürməli, Qars və digər ərazilərdə azərbaycanlıların qırğınının fəal iştirakçılarından biri olmuş erməni zabiti Ovanes Apresyanın xatirələri əsasında amerikalı Leonard Ramsden Hartvill «İnsanlar belə imişlər» adlı kitab yazmışdır. Ovanes Apresyan kitabın müəllifi ilə söhbəti zamanı ermənilərin ingilislərin və Rusiyanın

---

[10] Vilayət Quliyev. Azərbaycanda erməni zülmü.
Bakı "Ozan" 1999. səh. 21-22.

[11] Vilayət Quliyev. Azərbaycanda erməni zülmü. Bakı "Ozan" 1999. səh. 27.

[12] Солмаз Рустамова-Тогиди. Азербайджанские погромы в документах Март 1918 г. Баку. Баку – 2009 səh. 689.

yardımı ilə öz məqsədlərinə çatdıqlarını qeyd edərək təkcə Bakıda mart qırğını zamanı **iyirmi beş min** azərbaycanlının qətlə yetirildiyini bildirmişdir[13].

Daşnakların azərbaycanlılara qarşı soyqırımı yalnız Bakı ilə məhdudlaşmamışdır. Qısa müddətdə Şamaxı, Quba, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvan, İranın azərbaycanlılar yaşayan Urmiya, Xoy və Salmas, Türkiyənin Qars, Ərzurum və digər şəhərlərində də qırğınlar törədilmişdir. Yalnız 1915-ci ildə Türkiyənin Van şəhərində erməni terrorçu-quldur dəstələri tərəfindən "şəhərin müsəlman məhəllələri tamamilə boşaldılaraq **30 minə yaxın** müsəlman (türk) qətlə yetirilmişdir"[14]. Bütövlükdə "Egey dənizindən Qara dənizə və Qafqaza qədər ərazidə isə əksəriyyəti türk olan **2,5 milyon** müsəlman qətlə yetirilmişdir"[15].

1918-ci ilin mart-aprel aylarında Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 dinc sakin qətlə yetirmişdir (*Fövqəladə İstintaq Komissiyasının materiallarından*)[16]. Şamaxı Cümə məscidi də daxil olmaqla əksər mədəniyyət abidələri yandırılmış və uçurulmuşdur.

Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi tamamilə yandırılmış, əhalisi məhv edilmişdir. 1918-ci il aprelin 29-da Qərbi Azərbaycanın (İndiki Ermənistan) Gümrü şəhəri yaxınlığında əsasən qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq son nəfərinədək məhv edilmişdir[17].

---

[13] Vilayət Quliyev. Azərbaycanda erməni zülmü. Bakı "Ozan" 1999. səh. 176.
[14] Erich Feigl. Armenische Mythomanie. Salzburg, 2007, page 84.
[15] Erich Feigl. Armenische Mythomanie. Salzburg, 2007, page 88.
[16] Anar İsgenderli. Realities of Azerbaijan: 1917-1920. ABŞ-2011 səh. 112.
[17] Vilayət Quliyev. Azərbaycanda erməni zülmü. Bakı "Ozan" 1999. səh. 28.

Erməni silahlı dəstələri Naxçıvan qəzasının bir neçə kəndini yandırmış, indiki Ermənistanın Zəngəzur qəzasında **115** azərbaycanlı kəndi məhv edilmiş, **3257 kişi, 2276 qadın və 2196 uşaq** öldürülmüşdür. Bütövlükdə bu qəza üzrə **10068** azərbaycanlı öldürülmüş və ya şikəst edilmişdir (*Fövqəladə İstintaq Komissiyasının materiallarından*)[18].

İrəvan quberniyasının 199 kəndində yaşayan **135 min** azərbaycanlı məhv edilmiş, kəndlər isə yerlə yeksan olmuşdur. "Münaqişənin sonunda isə bu quberniyanın azərbaycanlı əhalisindən "**180 mini,** yaxud hər üç nəfərdən ikisi qətlə yetirilmiş və ya qaçqına çevrilmişdir"[19]. Erməni silahlı dəstələri daha sonra Qarabağa yürüş etmiş, 1918-1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kənd dağıdılmış, əhalisi məhv edilmişdir[20].

1975-ci ildə Beyrutda yaradılmış və əsas məqsədi Şərqi Türkiyə, Şimali İran, Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ əraziləri üzərində «Böyük Ermənistan» qurmaqdan ibarət olan «Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu» (ASALA) dünya terror tarixinə daha bir yenilik bəxş etmişdir. Belə ki, 70-80-ci illərdə bu təşkilatın əsas hədəfi Türkiyə diplomatları olmuşdur.

Həmin illərdə 21 ölkənin 38 səhərində 110 terror hadisəsi həyata keçirmiş təşkilat tərəfindən 42 türk, 15 əcnəbi diplomat qətlə yetirilmişdir. Türkiyə daxilində ASALA tərəfindən ilk terror əməli 7 avqust 1982-ci ildə Ankara şəhərindəki

[18] Anar İsgenderli. Realities of Azerbaijan: 1917-1920. ABŞ-2011 səh. 123.
[19] J. McCarthy, C. McCarthy. Turks and Armenians . Amanual on the Armenian Question. Committee on Education Assembly of Turkish American Associations. Washington, D.C. 1989, page 62.
[20] Azərbaycanlıların soyqırımı: Tarixin qanlı salnaməsi. Bakı-2012. səh. 132.

Esenboğa Hava limanında törədilmişdir. Hadisə nəticəsində 9 nəfər həyatını itirmiş, 72 nəfər yaralanmışdır[21].

SSRİ dağıldıqdan sonra müstəqil Ermənistan Respublikası dövlət səviyyəsində terroru dəstəkləyərək, terrorçuluğu təcavüzkar siyasətinin əsas vasitələrindən birinə çevirmişdir. Çoxsaylı faktlar, məhkəmə materialları sübut edir ki, Azərbaycanın dinc əhalisinə qarşı, o cümlədən nəqliyyat vasitələrində törədilən terror əməlləri Ermənistan hökuməti tərəfindən maliyyələşdirilərək, bu ölkənin xüsusi xidmət orqanları tərəfindən təşkil olunmuşdur.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın rəsmi dairələri «Daşnaksütyun», ASALA, MAQ, «Erməni birliyi», «Erməni Azadlıq Cəbhəsi» və digər məşhur erməni terror təşkilatları fəallarının reabilitasiyası məqsədi ilə genişmiqyaslı kampaniyaya başlamış, onlara sığınacaq verməklə yaşayış və fəaliyyətləri üçün şərait yaratmış, müvafiq maliyyə dəstəyi göstərmişlər.

15 iyul 1983-cü ildə Parisdə Orli hava limanında 8 nəfərin ölümü və 60 nəfərin yaralanması ilə nəticələnmiş terror əməlinə görə, ömürlük həbs cəzasına məhkum edilmiş Suriya mənşəli terrorçu Varocan Qarabedyanın azad olunması üçün Ermənistanda dövlət səviyyəsində imza toplama kampaniyası keçirilmişdir. 2001-ci ilin aprelində Fransa məhkəməsi tərəfindən azad olunan terrorçu Ermənistanda rəsmi sığınacaq tapmışdır.

Məşhur terrorçu, Qərbi Avropada «ASALA-nın inqilabi hərəkatı» adlı qruplaşmasının rəhbəri, Parisdə Orli hava limanında törədilmiş terrora (15 iyul 1983-cü il) görə, 28 noyabr

[21] http://tr.wikipedia.org/wiki/ASALA.

1985-ci ildə 6 il müddətinə həbs olunmuş ABŞ-ın Kaliforniya Ştatında doğulmuş Monte Melkonyan 1990-cı ildə Fransa həbsxanasından buraxılaraq Ermənistana gəlmiş və terror fəaliyyətini davam etdirmək üçün buradan Dağlıq Qarabağa göndərilmişdir. M.Melkonyan 17 fevral 1992-ci il tarixdə Azərbaycanın Xocavənd rayonu, Qaradağlı kəndində, 26 fevral 1992-ci ildə isə Xocalı şəhərində törədilmiş soyqırım aktı zamanı erməni terror dəstəsinin komandanı olmuşdur. Bu faktı M.Melkonyanın qardaşı Markar Melkonyan 2005-ci ildə Nyu-Yorkda nəşr etdirdiyi "Mənim qardaşımın yolu" adlı kitabında da təsdiq edir[22]. 1993-cü ildə Dağlıq Qarabağda öldürülən terrorçunun Yerevanda dəfn mərasimində rəsmi şəxslər, o cümlədən Ermənistan prezidenti də iştirak etmişdir. Müdafiə Nazirliyinin diversiya mərkəzlərindən birinə Ermənistanın milli qəhrəmanı elan olunmuş bu beynəlxalq terrorçunun adı verilmişdir.

Məşhur terrorçu, Daşnaksütyun partiyasının «Dro» terror qrupunun üzvü, İran mənşəli Qrant Markaryan Dağlıq Qarabağda terrorçu dəstələri yaradanlardan və Ermənistandan gətirilən silahlar vasitəsilə buradakı terrorçu qrupların silahlandırılmasında fəal iştirak edənlərdən biri olmuşdur[23].

1981-ci ildə Parisdə Türkiyə səfirliyinə basqının təşkilatçısı, Suriya mənşəli erməni Vazqen Sislyan 1992-ci ildə Yerevandan Xankəndinə göndərilmişdir. Vazgen Sislyan azərbaycanlılara qarşı terrorun həyata keçirilməsində fəal iştirakına görə prezident Robert Koçaryan tərəfindən «Qarabağ müharibəsinin qəhrəmanı» adına layiq görülmüşdür[24].

---

[22] Markar Melkonyan. Mənim qardaşımın yolu. Nyu-York - 2005-ci il. səh. 213-214.

[23] Erməni terroru. Bakı – 2005-ci il. səh. 138.

[24] Erməni terroru. Bakı – 2005-ci il. səh. 138.

Qarabağın dinc azərbaycanlı əhalisinin öldürülməsində Ermənistan xüsusi xidmət orqanlarının himayə etdiyi Əbu Əli və Hilbert Minasyan kimi Yaxın Şərq mənşəli digər terrorçular da fəal iştirak etmişlər[25].

1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə insanlıq tarixinin ən dəhşətli cinayətlərindən biri - Xocalı faciəsi baş vermişdir. Azərbaycan Respublikası ərazisində 2-ci erməni dövləti yaratmaq iddiasında olan separatçı erməni silahlı birləşmələri həmin gecə, keçmiş Sovet Ordusunun Xankəndindəki 366-cı alayının köməyi ilə Azərbaycanın Dağlıq Qarabağ vilayətində yerləşən Xocalı şəhərinə qəflətən hücuma keçmişdir.

Əksəriyyəti qoca, qadın və uşaqlardan ibarət olan dinc əhalinin böyük bir hissəsi elə evlərindəcə öldürülmüşdür. Soyuq qış gecəsində evlərini tərk etməyə məcbur olan mülki əhalinin bir hissəsi şəhərin küçələrində vəhşicəsinə qətlə yetirilmiş, qaçaraq meşələrə, çöllərə dağılan başqa bir hissəsi isə təqib olunaraq məhv edilmişdir. Onlara heç bir aman verilməmiş, insanlar yaşına, cinsinə fərq qoyulmadan qətlə yetirilmişdir. Ermənilər tərəfindən əsir-girov götürülənlər isə ağır işgəncələrə məruz qalmış, qeyri-insani şəraitdə saxlanılmış, beynəlxalq humanitar qaydalara zidd olaraq alçaldılıb təhqir edilmişdir.

Beləliklə, həmin gecə 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca qətlə yetirilmiş, 1275 nəfər əsir və girov götürülmüşdür. 8 ailə tamamilə məhv edilərək yer üzündən silinmişdir. 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirmişdir. 487 nəfər, o cümlədən 36 uşaq yaralanmışdır. Hazırda Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında 185 nəfər itkin

[25] Erməni terroru. Bakı – 2005-ci il. səh. 138.

düşmüş şəxs kimi qeydiyyata alınmışdır və barələrində axtarış-araşdırma işləri aparılır. Onlardan 26-sı uşaq (11 qız), 59-u qadın, 44-ü qocadır (21 qadın). İtkin düşmüş şəxs kimi qeydiyyata alınmış 185 nəfərdən 95-nin isə ermənilər tərəfindən əsir və girov götürülməsi barədə şahid ifadələri vardır. Onlardan 11-i uşaq (2 qız), 23-ü qadın, 11-i isə (7 qadın) qocadır.

Xocalı soyqırımı ilə bağlı aparılmış əməliyyat - istintaq araşdırması zamanı sübut olunmuşdur ki, şəhərə hücumda hazırda (bu kitab nəşrə hazırlanarkən) Ermənistan Respublikasının müdafiə naziri işləyən Seyran Ohanyanın komandanlığı altında 366-cı alayın 2-ci taboru, həmçinin alayın 1-ci taborunun qərargah rəisi Valeriy Çitçyan və alayda xidmətdə olmuş 50-dən artıq erməni zabit və giziri də iştirak etmişdir.

Həmin vaxt Dağlıq Qarabağda olmuş Rusiyanın «Memorial» hüquq-müdafiə mərkəzinin məlumatına əsasən, dörd gün ərzində Ağdam şəhərinə Xocalının işğalı zamanı qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarla meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdir. Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) məhkəmə-tibb ekspertizasından keçirilmişdir. Ekspertiza zamanı müəyyən edilmişdir ki, 151 nəfər güllə , 20 nəfər qəlpə yarasından, 10 nəfər isə küt alətlə vurularaq öldürülmüşdür. Hüquq-müdafiə mərkəzi diri adamın başının dərisinin soyulması faktını da qeydə almışdır[26].

Xocalıda baş vermiş bu soyqırım aktı Ermənistanın Azərbaycana təcavüzü zamanı insanlığa və bəşəriyyətə qarşı Ermənistan Ordusu, erməni terrorçu və silahlı quldur birləşmələri tərəfindən törədilmiş cinayət əməllərinin yalnız bir nümunəsidir.

[26] http://www.memo.ru/uploads/files/402.pdf.

Ermənistan dövlətinin və erməni diasporunun maliyyə və təşkilatı yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardığı terror müharibəsi 1980-ci illərdən başlayaraq ardıcıl xarakter almışdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonun işğalı zamanı kütləvi vahimə yaratmaq, çoxlu insan tələfatına nail olmaq məqsədi ilə Ermənistanın xüsusi xidmət orqanları hərbi əməliyyatların getdiyi ərazilərlə yanaşı, xeyli uzaqda dinc əhalinin yaşadığı məntəqələrdə də terror təşkil etmiş, nəticədə yüzlərlə günahsız insan həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının yeni tərkibi ilə bağlı 1 mart 2001-ci il tarixli sərəncamında Dövlət Komissiyasının qarşısında Ermənistan tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən terror, soyqırım və etnik təmizləmə siyasətini əks etdirən hüquqi-tarixi sənədlərin toplanması, sistemləşdirilməsi və dünya ictimaiyyətinə çatdırılması kimi mühüm vəzifə müəyyənləşdirilmişdir.

Bununla bağlı Ermənistan hərbçiləri və terrorçu-quldur birləşmələri tərəfindən törədilmiş cinayətlər barədə materialların Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilməsi barədə qərar qəbul olunmuşdur. Erməni silahlı birləşmələrinin üzvləri, həbsxana və təcridxanaların əməkdaşları tərəfindən Dağlıq Qarabağ bölgəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin əsirlikdə olan hərbi qulluqçuları və beynəlxalq humanitar hüquqla müdafiə olunan mülki və digər şəxslərlə amansız rəftar edilməsi, onların şəxsi ləyaqətlərini mütəmadi olaraq alçaltmaqla özünü öldürmə

dərəcəsinə çatdırılmaları, zorlanmaları, müntəzəm olaraq döyülmələri, işgəncələrə məruz qalmaları, eləcə də onların ölümü və sağlamlıqlarına ağır zərər vurulması ilə nəticələnən, müharibə qanunlarının və adətlərinin pozulması faktları üzrə 01.09.2000-ci il tarixədək qüvvədə olmuş Azərbaycan Respublikası CM-in 100-cü maddəsinin (*Özünü öldürmə dərəcəsinə çatdırma*) 1-ci hissəsi (*Təqsirli şəxsdən maddi cəhətdən və ya sair cəhətdən asılı olmuş zərər çəkmiş şəxsi onunla amansız rəftar etmə və ya onun şəxsi ləyaqətini mütəmadi olaraq alçaltma yolu ilə özünü öldürmə dərəcəsinə və ya özünü öldürməyə sui-qəsd dərəcəsinə çatdırma*), 108-ci (*Döymə və işgəncə vermə*) maddəsinin 2-ci hissəsi (*Müntəzəm olaraq adam döymə və işgəncə xarakteri daşıyan sair hərəkətlər*), 109-cu maddəsinin (*Zorlama*) 4-cü hissəsi (*Xüsusi təhlükəli residivist tərəfindən zorlama, habelə azyaşlını zorlama*), 01.09.2000-ci il tarixdən qüvvəyə minmiş Azərbaycan Respublikası CM-in 115.3-cü maddəsi (Müharibə qanunlarını və adətlərini pozma) ilə 27 noyabr 2002-ci il tarixdə Azərbaycan Respublikası Baş prokuroru tərəfindən 0340 saylı cinayət işi başlanmışdır.

29 noyabr 2002-ci il tarixdə həmin cinayət işi istintaq aparılması üçün Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq İdarəsinə verilmişdir. Cinayət İşi üzrə Azərbaycan Respublikası Baş prokurorunun 06 dekabr 2002-ci il tarixli qərarı ilə istintaq-əməliyyat qrupu yaradılmışdır. İstintaq-əməliyyat qrupuna Hərbi Prokurorluğun və Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları daxil edilmişdir.

Sonradan aparılmış araşdırmalar nəticəsində cinayət işinin yalnız şəxsiyyət əleyhinə (əsir və girov götürülmüş şəxslərə

qarşı) deyil, həmçinin soyqırım, insanlıq və bəşəriyyətə qarşı, o cümlədən konstitusion quruluşun zorla dəyişdirilməsi, qanunsuz silahlı birləşmələrin yaradılması, insanların kütləvi şəkildə qətlə yetirilməsi, öz yurdlarından qovulması, kütləvi terror hadisələri, mülki, dövlət və inzibati binaların partladılması və ekoloji cinayətləri əhatə etdiyi müəyyən edilmişdir.

Göstərilənlər nəzərə alınaraq, "**Dağlıq Qarabağın silahlı separatçı qüvvələri və Ermənistanın hərbi birləşmələri tərəfindən törədilmiş cinayət hadisələrinin istintaqı ilə əlaqədar birgə istintaq-əməliyyat qrupunun yaradılmasına dair**" Azərbaycan Respublikası Baş prokuroru, Azərbaycan Respublikası daxili işlər və milli təhlükəsizlik nazirlərinin 18.12.2003-cü il tarixli birgə əmri imzalanmışdır.

1988-ci ildən etibarən erməni silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağdan və Azərbaycanın digər işğal olunmuş ərazilərindən əhalinin məcburi köçürülməsi, yaşayış məntəqələrində maddi sərvətlərin, tarixi mədəniyyət abidələrinin dağıdılması, azərbaycanlı əsir və girovlara dəhşətli işgəncələr verilərək onların bir qisminin öldürülməsi və şikəst edilməsi, habelə ermənilərin törətdikləri təxribat, terror və başqa ağır cinayət faktları ilə əlaqədar Baş Prokurorluğun ərazi və hərbi prokurorluqları, Daxili İşlər və Milli Təhlükəsizlik Nazirliklərinin istintaq aparatları tərəfindən 600-dən çox cinayət işi başlanmış, istintaq aparılmışdır.

30 dekabr 1999-cu ildə qəbul edilmiş və 01 sentyabr 2000-ci ildə qüvvəyə minmiş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-cü maddəsi ilə terrorçuluq, yəni ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən

qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak (qətlə yetirilməsi) olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlərin törədilməsi, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə əməllərinə görə, cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Lakin yeni Məcəllə qəbul edilməmişdən əvvəl Azərbaycan Respublikasının 01 sentyabr 2000-ci ilədək qüvvədə olan Cinayət Məcəlləsində "terrorçuluq" cinayəti müstəqil norma kimi nəzərdə tutulmadığından, yuxarıda qeyd olunan ictimai təhlükəli əməllərin törədilməsi nəticələrdən asılı olaraq hüquq mühafizə orqanları tərəfindən 01 sentyabr 2000-ci ilədək qüvvədə olan CM-in 61 (*təxribat*), 70 (*banditizm*), 94 (ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə) və s. maddələrlə tövsif olunurdu.

Eyni zamanda, Azərbaycan Respublikasının 01 sentyabr 2000-ci ilədək qüvvədə olan Cinayət Məcəlləsinin 59-cu (*terror aktı*) maddəsi ilə terror aktına görə cinayət məsuliyyəti nəzərdə tutulmasına baxmayaraq, bu maddə ilə məsuliyyət yalnız siyasi niyyətlə dövlət və ictimai xadimin, habelə xarici dövlət nümayəndəsinin öldürülməsi və ya eyni niyyətlə həmin şəxslərə ağır bədən xəsarətinin yetirilməsinə görə yaranırdı. Hazırda qüvvədə olan CM-in 277-ci (*Dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə (terror aktı)*) maddəsi ilə də dövlət xadimini və ya ictimai xadimin, habelə xarici dövlət nümayəndəsinin xidməti və ya siyasi fəaliyyətinə son qoymaq və ya bu fəaliyyətə görə qisas almaq məqsədilə onun həyatına sui-qəsd etməyə *(terror aktı)* görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

# Erməni terrorçu-quldur birləşmələri tərəfindən Dağlıq Qarabağ və ətraf rayonlarda törədilmiş terror əməlləri:

***Xəlfəli çayı üzərindəki avtomobil yolu körpüsünün partladılması faktına görə başlanmış 38 saylı cinayət işi üzrə***

**7 oktyabr 1989-cu il tarixdə**, təxminən saat $21^{30}$-da istintaqa məlum olmayan şəxslər tərəfindən Xankəndi *(Xankəndi 18-ci əsrin sonlarında Qarabağ xanlarının istirahət məntəqəsi olmuşdur. Elə bu səbəbdən də yaşayış məntəqəsi Xankəndi, yəni xanın yaşadığı kənd - adlandırılmışdır. Sovet hakimiyyəti qurulduqdan sonra, 1923-cü il iyulun 7-də Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" dekret vermiş və Xankəndi vilayətin mərkəzi elan olunmuşdur. Az sonra isə şəhər 1918-ci ilin martında və ondan sonrakı aylarda Azərbaycanda törədilmiş soyqırımın ideya müəllifi və rəhbərlərindən olmuş Stepan Şaumyanın adı ilə "Stepanakert" adlandırılmışdır. 1991-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə şəhərin əvvəlki - "Xankəndi" adı bərpa edilmişdir.)* şəhərinin cənub tərəfində, Xəlfəli çayının üzərindəki körpünün partladılması faktına

görə, 8 oktyabr 1989-cu il tarixdə SSRİ DTK-nın istintaq qrupu tərəfindən Azərbaycan Respublikası CM-in 61-ci maddəsi *(təxribat)* ilə 38 saylı cinayət işi başlanmışdır.

İstintaqın sonrakı mərhələlərində həmin cinayət işinə 1989-1990-cı illərdə Azərbaycan Respublikası Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) müxtəlif ərazilərində avtomobil yollarının və qurğuların partladılması faktlarına görə, başlanmış aşağıda sadalanan cinayət işləri də birləşdirilmiş və işin icraatı SSRİ DTK-nın istintaq şöbəsinin xüsusilə mühüm işlər üzrə böyük müstəntiqi P.A.Sokolova tapşırılmışdır:

– 1989-cu ilin noyabr ayının 13-dən 14-nə keçən gecə, təxminən saat $01^{05}$-də Yevlax-Laçın magistral xəttinin Xankəndi (Stepanakert) – Şuşa yaşayış məntəqələrinin 6-cı km-də, yolun dayaq divarının naməlum şəxslər tərəfindən partlayıcı qurğu vasitəsi ilə partladılması faktına görə, 14 noyabr 1989-cu il tarixdə DQMV-in prokuroru tərəfindən Azərbaycan Respublikası CM-in 61-ci maddəsi *(təxribat)* ilə başlanmış **14 saylı** cinayət işi;

– **18 fevral 1990-cı il tarixdə**, təxminən saat $08^{25}$-də Yevlax-Laçın magistral xəttinin 105-ci km-də Şuşa - Bakı reysi ilə hərəkət edən «İkarus 250/59» markalı, 34-67 AQL dövlət nömrə nişanlı sərnişin avtobusunun üç metrliyində naməlum şəxslər tərəfindən törədilmiş partlayış nəticəsində avtobus texniki cəhətdən yararsız vəziyyətə düşmüş, avtobusun içərisində olan sərnişinlər isə bədən xəsarətləri almışlar. Fakt üzrə 18 fevral 1990-cı il tarixdə SSRİ prokurorluğunun istintaq qrupunun müstəntiqi N.N.Qaristov tərəfindən Azərbaycan Respublikası CM-in 61-ci maddəsi (*təxribat*) ilə başlanmış **102004 saylı** cinayət işi.

14 may 1990-cı il tarixdə 38, 14 və 102004 saylı cinayət işləri bir icraatda birləşdirilmiş, cinayəti törətmiş şəxslər müəyyən edilmədiyindən 8 iyun 1990-cı il tarixdə cinayət işinin ibtidai istintaqı dayandırılmışdır.

Lakin 24 iyun 1991-ci il tarixdə inzibati hüquqpozmaya görə, naryadda olan hərbçilər tərəfindən Xankəndi şəhərində saxlanılmış A.A.Abramyan yazılı ərizəsində Xəlfəli çay körpüsünün partladılmasında iştirak etmiş şəxslərdən biri olması və onlar tərəfindən törədilmiş cinayətin mahiyyəti üzrə ətraflı ifadə verməyə hazır olduğunu bildirmişdir.

25 iyun 1991-ci il tarixdə həmin cinayət işi Azərbaycan Respublikasının DQMV üzrə vahid istintaq-əməliyyat qrupuna (VİƏQ) göndərilmiş, həmin gün Azərbaycan Respublikası prokurorluğunun xüsusilə mühüm işlər üzrə müstəntiqi A.İ.Maşin tərəfindən cinayət işinin istintaqı təzələnmişdir.

11 sentyabr 1991-ci il tarixdə həmin cinayət işi Azərbaycan Respublikası Baş Prokurorluğu yanında xüsusilə mühüm işlər üzrə müstəntiq R.Musayev tərəfindən icraata qəbul edilmiş və işə 38/33063 sayı verilmişdir.

12 sentyabr 1991-ci il tarixdə S.A.Babayanın *(1992-ci ildə ermənilər tərəfindən girov götürülmüş azərbaycanlılarla dəyişdirilmiş Samvel Babayan sonradan – 1993-1999-cu illərdə "DQR"in "Müdafiə naziri" vəzifəsini daşımış və bu qondarma qurumun "Prezidenti"nə qarşı sui-qəsdə cəhd etdiyi üçün orada həbs edilmişdir)* 1989-cu ilin oktyabr ayında baş vermiş partlayışlarla əlaqədar xəbər verməməyə görə, məsuliyyətə cəlb olunması barədə 33028 saylı cinayət işi 38/33063 saylı cinayət işinə birləşdirilmişdir.

4 yanvar 1992-ci il tarixdə Azərbaycan Respublikası MTN-in istintaq şöbəsinin rəisi R.Mansurov tərəfindən

A.A.Abramyanın, S.A.Babayanın və başqalarının təqsirləndirilmələrinə dair 38/33063 saylı cinayət işindən 9 oktyabr 1989-cu il tarixdə avtomobil yolu körpüsünün, 25 oktyabr 1989-cu il tarixdə Kivirtuçay üzərindəki avtomobil yolu körpüsünün, 14 noyabr 1989-cu il tarixdə avtomobil yolunun dayaq divarının, 18 fevral 1990-cı il tarixdə avtomobil yolunun və sərnişin avtobusunun naməlum şəxslər tərəfindən partladılması faktlarına görə, Azərbaycan Respublikası CM-in 61-ci maddəsi *(təxribat)* ilə ayrı-ayrı icraatda olan cinayət işləri birləşdirilmiş və işə 38 sayı verilməklə istintaqın davam etdirilməsi Azərbaycan Respublikası MTN-in istintaq şöbəsinin mühüm işlər üzrə böyük müstəntiqi S.D.Bayramova həvalə edilmişdir.

4 yanvar 1992-ci il tarixdə 38 saylı cinayət işi S.D.Bayramov tərəfindən icraata qəbul edilmiş və 10 yanvar 1992-ci il tarixdə Azərbaycan Respublikası CPM-in 209-cu maddəsinin 3-cü bəndinə (*cinayəti törətmiş şəxslərin müəyyən edilməməsinə görə*) əsasən cinayət işinin ibtidai istintaqı dayandırılmışdır.

### *Bərdə – İstisu avtomobil yolunun 93-cü km-də erməni silahlı quldur dəstəsi tərəfindən avtomobil karvanına silahlı basqın ilə əlaqədar başlanmış 44/33013 saylı cinayət işi üzrə*

Cinayət işi **11 iyul 1990-cı il tarixdə,** saat $18^{00}$ radələrində Bərdə-İstisu avtomobil yolunun 93-cü km-də Xocavənd *(Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixli, 279-XII nömrəli qanununa əsasən, DQMV ləğv edilərək Martuni və Hadrut rayonlarının bazası əsasında Xocavənd rayonu yaradılmışdır. Rayon*

*2 oktyabr 1992-ci il tarixdə Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğal edilmişdir)* rayonunun Hənəvan kəndi yaxınlığında İşxanyan Zaven Vartanoviç və İskəndəryan Borik Vazqenoviçin yaratdığı, Ağdərə rayonu, Yuxarı-Ortaq kənd sakini Ayriyan Arkadi Abramoviç və erməni millətindən olan başqa şəxslərin daxil olduqları silahlı birləşmə tərəfindən Kəlbəcər rayonuna insan və yük aparan 16 avtomaşından ibarət avtomobil karvanına silahlı basqın nəticəsində 3 nəfər – 5436 saylı hərbi hissənin əsgəri Mezensev Sergey Viktoroviç, Kəlbəcər rayon sakinləri – polis əməkdaşı Şükürov Şahlar Əvəz oğlu və İsmayılova Çimnaz Şamşir qızının qətlə yetirilməsi, 23 nəfərin isə müxtəlif dərəcəli bədən xəsarətləri alması faktı üzrə 12 iyul 1990-cı il tarixdə sabiq Mardakert rayon prokurorluğu tərəfindən Azərbaycan Respublikasının 01 sentyabr 2000-ci ilədək qüvvədə olmuş CM-in 94-cü maddəsinin 2 və 4-cü bəndləri (*ağırlaşdırıcı hallarda iki və ya bir neçə şəxsi qəsdən öldürmə*) ilə başlanmışdır.

Cinayət işi istintaqının gedişi zamanı Ayriyan Arkadi Avramoviç və erməni millətindən olan digər şəxslər tərəfindən törədilmiş qəsdən adam öldürmə, quldurluq, milli, dini və irqi hüquq bərabərliyini pozma ilə əlaqədar başlanmış bir sıra cinayət işləri hazırkı cinayət işinə birləşdirilmişdir. İşin icraatı Azərbaycan Respublikası MTN-in istintaq şöbəsinin rəisi R.T. Mansurova verilmişdir.

Ali Məhkəmənin Cinayət İşləri üzrə Məhkəmə Kollegiyasının 10 iyul 1992-ci il tarixli hökmünə əsasən, A.A.Ayriyan ona elan olunmuş ittihamla tam təqsirli bilinərək ölüm cəzasına məhkum edilmişdir.

Aparılan cinayət işinin istintaqı zamanı yuxarıda qeyd olunan cinayətlərin digər iştirakçılarının şəxsiyyəti və olduqları yer müəyyən edilmədiyindən 26 aprel 1992-ci il tarixdə Azərbaycan Respublikası MTN-in istintaq şöbəsinin rəisi R.T.Mansurov tərəfindən cinayət işinin icraatı dayandırılmışdır.

25 fevral 2003-cü il tarixdə qərar ləğv olunaraq, işin icraatı təzələnmiş və ibtidai istintaqın davam etdirilməsi üçün aidiyyəti üzrə Baş Prokurorluğun Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq idarəsinə göndərilmişdir.

03 mart 2003-cü il tarixdə həmin cinayət işi Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır cinayətlərə dair İşlər üzrə İstintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi Ə.Q.Həmidov tərəfindən icraata qəbul edilmişdir.

İş üzrə ibtidai istintaqın sonrakı mərhələsində müəyyən edilmişdir ki, Azərbaycan Respublikası Ağdərə rayonunun *(Rayon 8 avqust 1930-cu ildə təşkil edilmişdir. 10 sentyabr 1939-cu ilədək Cerabert, sonradan Mardakert daha sonra isə Ağdərə adlanmışdır.)* sakinləri İşxanyan Zaven Vartanoviç və İskəndəryan Borik Vazqenoviç qabaqcadan əlbir olub cinayət əlaqəsinə girərək 1990-cı ildə Dağlıq Qarabağın Azərbaycandan ayrılaraq, Ermənistan Respublikasına birləşdirilməsi və tarixən orada yaşamış azərbaycanlı əhalini öz doğma torpaqlarından çıxarma məqsədilə Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmayan silahlı birləşmə yaradaraq, qəsdən adam öldürmə, silahlı basqın və yuxarıda qeyd olunan digər cinayətləri törətmişlər.

Qeyd olunan cinayət əməllərinə görə, 28 mart 2003-cü il tarixdə Z.V.İşxanyan və B.V.İskəndəryanın barəsində Azərbaycan Respublikası CM-in 279.3-cü maddəsi

*(qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma, adamların həlak olmasına və ya digər ağır nəticələrə səbəb olduqda)* ilə təqsirləndirilən şəxs qismində cəlb etmək haqqında qərarlar qəbul edilmiş və 29 mart 2003-cü il tarixdə barələrində axtarış-tutma elan edilməklə Azərbaycan Respublikası CPM-in 53.1.3-cü maddəsinə (*təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs istintaqdan və ya məhkəmədən gizləndikdə*) əsasən işin icraatı dayandırılmışdır.

Z.V.İşxanyan və B.V.İskəndəryanın barəsində dövlətlərarası və beynəlxalq axtarış elan edilməsi üçün Bakı şəhər Nəsimi rayon məhkəməsi tərəfindən 19 may 2003-cü il tarixdə həmin şəxslər haqqında həbs qətimkan tədbiri seçilməsi barədə qərar qəbul edilmişdir.

### *Tbilisi-Ağdam marşrutu ilə hərəkət edən avtobusun partladılması faktına görə başlanmış 29187 saylı cinayət işi üzrə*

**10 avqust 1990-cı il tarixdə** Tiblisi-Ağdam avtobusunun partladılması nəticəsində 17 nəfər həlak olmuş, 18 nəfər müxtəlif bədən xəsarətləri almışdır. Faktla bağlı Azərbaycan Respublikası Xanlar rayonu prokuroru R.Səmədov tərəfindən Azərbaycan Respublikası CM-in 61-ci (*təxribat*) maddəsi ilə cinayət işi başlanmışdır. Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində partlayışı törətmiş terrorçu qrupun üzvləri həbs edilmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin 27 may 1992-ci il tarixli qərarı ilə qrupun rəhbəri A.Avanesyan güllələnmə

cəzasına məhkum olunmuş, digər bir üzvü - M.Tatevosyan isə 15 il azadlıqdan məhrum edilmişdir. Məlum olmuşdur ki, 17 iyul 1991-ci il tarixdə də cinayətkarlar eyni reys ilə hərəkət edən sərnişin avtobusunu partlatmaq cəhdi göstərmiş, lakin bu cəhd uğursuzluqla nəticələnmişdir.

***Xankəndi şəhərində yerləşən teleradio yayımı komitəsinin binasında partlayış törədilməsi faktına görə başlanmış 68 saylı cinayət işi üzrə***

Cinayət işi **15 sentyabr 1990-cı il tarixdə**, təxminən saat $01^{30}$-da naməlum şəxslər tərəfindən Xankəndi şəhərinin Lenin prospekti ilə Atarbekov küçəsinin kəsişməsində yerləşən DQMV-in teleradio yayımı üzrə komitəsinin binasında partlayış törədilməsi faktına görə, həmin gün Xankəndi şəhər prokuroru B.A.Melkumov tərəfindən Azərbaycan Respublikası CM-in 61-ci (təxribat) maddəsi ilə başlanmış və Azərbaycan Respublikası DTK-nın DQMV üzrə şöbəsinin mühüm işlər üzrə böyük müstəntiqi A.V.Şemelyov tərəfindən icraata qəbul edilmişdir.

21 yanvar 1992-ci il tarixdə cinayət işi Azərbaycan Respublikası MTN-in istintaq şöbəsinin rəis müavini R.Mənsurov tərəfindən icraata qəbul edilmiş və CPM-in 209-cu maddəsinin 3-cü bəndinə əsasən (*cinayəti törətmiş şəxslərin müəyyən edilməməsinə görə*), həmin gün iş üzrə ibtidai istintaqın icraatı dayandırılmışdır.

***Hadrut rayonu, Düdükçü kəndində çoxlu sayda odlu silah tapılması faktına görə başlanmış 18/35208-91 saylı cinayət işi üzrə***

Cinayət işi Azərbaycan Respublikası Prokuroru yanında mühüm işlər üzrə müstəntiq B.S.Məmmədovun 19 aprel 1991-ci il tarixli qərarı ilə A.L.Qriqoryan, J.R.Oqanyan və başqalarının Azərbaycan Respublikası CM-in (1 sentyabr 2000-ciilədək qüvvədə olmuş CM-in) 70-ci maddəsi (*banditizm*) və 220-ci maddəsinin 1-ci hissəsi (*odlu silahı, döyüş sursatını və ya partlayıcı maddələri oğurlama*) ilə təqsirləndirilməsinə dair 18/32847 saylı cinayət işindən ayrılmışdır.

Cinayət işinin istintaqı zamanı müəyyən edilmişdir ki, 15 noyabr 1990-cı il tarixdə, səhər saat $6^{00}$ radələrində Hadrut rayonunun Düdükçü kəndindəki bir evdən çoxlu sayda odlu silah – 2 ədəd AKM markalı, 3 ədəd əldə düzəltmə avtomat silah, 3 ədəd ov tüfəngi, 1 ədəd əldə düzəltmə tüfəng, 1 ədəd “Naqan” markalı tapança, 2 ədəd əldə düzəltmə və 2 ədəd təlim qumbaraatanları, 10 ədəd qumbaraatan üçün mərmi, 4 ədəd avtomat sandıqçası, 1000-dən artıq 7,62 və 5,45 kalibrli avtomat və tüfəng gülləri, 3 ədəd siqnal raketi, 10 ədəd kimyəvi partlayıcı, 3 ədəd radiostansiya, 3 ədəd qidalanma bloku, 1 ədəd “42-46 ADÇ” avtomaşın nömrə nişanı, müxtəlif hərbi geyimlər aşkar edilmiş və hadisə yerində silahlı dəstə üzvlərindən – Qriqoryan Manvel Sektoroviç, Muradyan Valerik Telvonoviç, Sayadyan Armen Qevorkoviç, Epremyan Artaş Taqikoviç, Akopyan Sarkis Çolokoviç və digərləri yaxalanmışlar.

Yaxalanmış dəstə əvvəlcə Füzuli rayonuna gətirilmiş və nədənsə elə həmin gün də Xankəndi şəhərinə etap edilmişdir. Xankəndi şəhərində qrupun üzvləri Dağlıq Qarabağ üzrə Fövqəladə vəziyyət rayonu komendantı, general-mayor V.İ. Safonovun 15 noyabr 1990-cı il tarixli (saxlanıldıqları gün) qərarına əsasən, Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) İnzibati Xətalar Məcəlləsinin 256-cı (pasport rejimini pozma) maddəsi ilə 30 sutka müddətinə həbs edilmiş, müddət bitdikdən sonra isə sərbəst buraxılmışlar. Şübhə yoxdur ki, erməni terrorçu-quldur dəstəsinin belə yüngül cəza verilməklə sonradan aradan çıxarılmasında həmin dövrdə SSRİ hakimiyyətinin yüksək dairələrində mövqe tutmuş və Dağlıq Qarabağda separatizmə dəstək verən ermənilərin və digər şəxslərin böyük təsiri olmuşdur.

Başlanmış cinayət işi üzrə bir sıra istintaq hərəkətləri aparılmış, 18 dekabr 1990-cı il və 20 dekabr 1990-cı il tarixlərində Qriqoryan Manvel Sektoroviç, Tatevosyan Aşot Akopoviç, Xaçaturyan Asatur Xristoforoviç, Epremyan Artaş Taqikoviç, Muradyan Valerik Telvonoviç, Sayadyan Armen Gevorkoviç, Aqanesyan Misak Surenoviçin Azərbaycan Respublikası CM-in 220-ci maddəsinin 1-ci hissəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaları barədə qərarlar çıxarılmış, barələrində həbs qətimkan tədbiri seçilərək axtarış elan edilmiş, onların yeri müəyyən edilmədiyindən, 19 iyun 1991-ci il tarixli qərarla Azərbaycan Respublikası CPM-in 209-cu maddəsinin 1-ci bəndinə əsasən işin istintaqı dayandırılmışdır.

Azərbaycan Respublikası Baş prokurorunun müavini, Azərbaycan Respublikasının Hərbi Prokuroru Xanlar Vəliyevin 24 avqust 2005-ci il tarixli qərarı ilə 18/35208-91 saylı

cinayət işinin istintaqının dayandırılması barədə Azərbaycan Respublikası Baş prokuroru yanında xüsusilə mühüm işlər üzrə müstəntiq V.S.Məmmədovun 19 iyun 1991-ci il tarixli qərarı ləğv edilmiş və cinayət işinin istintaqı təzələnərək Baş Prokurorluğun birgə istintaq qrupunun icraatında olan 80377 saylı cinayət işinə birləşdirilmişdir.

Eyni zamanda, cinayət işi üzrə yuxarıda adı çəkilmiş təqsirləndirilən şəxslərin 2000-ci ilin sentyabr ayının 1-dək qüvvədə olan Azərbaycan Respublikası CM-in 220-ci maddəsinin 1-ci hissəsi ilə cəlb olunmaları barədə 18 dekabr 1990-cı il və 20 dekabr 1990-cı il tarixli qərarlar öz qüvvəsində saxlanılmışdır.

Təqsirləndirilən şəxslər - Qriqoryan Manvel Sektoroviç, Tatevosyan Aşot Akopoviç, Xaçaturyan Asatur Xristoforoviç, Epremyan Artaş Taqikoviç, Muradyan Valerik Telvonoviç, Sayadyan Armen Gevorkoviç və Aqanesyan Misak Surenoviçə istintaqdan qaçıb gizləndiyinə görə, həmin maddə ilə ittiham elan etmək mümkün olmamış və Bakı şəhəri, Yasamal rayon məhkəməsinin 29 avqust 2005-ci il tarixli qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilmişdir.

Məhkəmənin qərarı qüvvəyə mindikdən sonra, Azərbaycan Respublikası Hərbi prokurorunun birinci müavini, Baş Prokurorluğun birgə istintaq-əməliyyat qrupu rəhbərinin 30 noyabr 2005-ci il tarixli qərarı ilə cinayət işi üzrə təqsirləndirilən şəxslər barəsində axtarış elan edilmiş, qərarın icrası təhqiqat orqanına tapşırılmışdır.

Araşdırma prosesində müəyyən edilmişdir ki, Ermənistanda fəaliyyət göstərən "Erqrap" (Ümumdünya erməni müdafiə Cəmiyyəti) təşkilatı rəhbərliyinin göstərişinə əsasən, **1990-**cı ilin noyabr ayında terrorçu qrup təşkilatın üzvü M.Qriqoryanın

başçılığı ilə Azərbaycan ərazisinə göndərilmişdir. Qrupa Azərbaycan ərazisində terror törətmək tapşırığı verilmişdir.

"Erqrap" (bu təşkilat eyni zamanda, Eçmiədzin hərbi birləşməsi adlanır) üzvlərindən ibarət olan terrorçu qrup cinayət məsuliyyətindən yayındıqdan sonra fəaliyyətini daha da gücləndirmiş və Azərbaycan Respublikası ərazilərinin işğalında və dinc əhalinin qırılmasında yaxından iştirak etmişdir. Qrupun əsas və aparıcı üzvlərindən biri olmuş Manvel Qriqoryan 1988-1992-ci illərdə Dağlıq Qarabağın cənubunda Azərbaycan Respublikasına qarşı döyüşlərə rəhbərlik etmişdir. 1992-ci ildə M.Qriqoryan və rəhbərlik etdiyi terrorçu hərbi birləşmələr Ermənistan Müdafiə Nazirliyinin tərkibinə daxil edilmiş və o, əlahiddə motoatıcı taborun komandiri təyin edilmişdir. M.Qriqoryan 1993-cü ildə briqada komandiri, 1997-ci ildə isə qoşun birləşməsi komandanı təyin edilmişdir. Ermənistan Respublikası Prezidentinin sərəncamı ilə 1996-cı ildə general-mayor rütbəsi almış M.Qriqoryan 1996-cı ildə "Erqrap"ın sədri seçilmişdir. 2000-ci ildə Ermənistan Respublikası Prezidentinin sərəncamı ilə general-leytenant rütbəsi almış M.Qriqoryan Ermənistan Respublikası Müdafiə nazirinin müavini vəzifəsinə təyin edilmiş və 2008-ci ilədək bu vəzifəni daşımışdır. O, hazırda da "Erqrap"ın sədri və Ermənistanın Eçmiədzin vilayətinin faktiki sahibidir. Beləliklə, Azərbaycan Respublikasının ərazisində törətmiş olduğu cinayət əməllərinə görə, barəsində cinayət işi başlanmış terrorçuya Ermənistanda yüksək titullar, ali hərbi rütbə və vəzifələr verilmişdir.

Maraqlı məqamlardan biri də ondan ibarətdir ki, 6 yanvar 2001-ci ildə Ermənistan Respublikasının Prezidenti Robert Koçaryanın imzaladığı qanuna əsasən, 8 may "Erqrap"

və Şuşanın "azadlığı" günü elan edilmişdir. "Erqrap" günü bu terrorçu təşkilatın Azərbaycan Respublikasının Şuşa şəhərinin işğalındakı roluna görə təsis edilmişdir. Bütün bunlar Ermənistanın bir dövlət kimi terrorçuluğa rəsmi dəstək verdiyini təsdiqləyən faktlardandır.

### *Erməni terrorçu-quldur birləşmələri və Ermənistan hərbçiləri tərəfindən törədilmiş ayrı-ayrı cinayət faktlarına görə başlanmış 80377/35277 saylı cinayət işi üzrə*

35277 №-li cinayət işi 14 fevral 1991-ci il tarixdə 34625 №-li cinayət işindən ayrılmışdır. Həmin cinayət işinin istintaq materiallarından görünür ki, 1988-ci ildən başlayaraq, Dağlıq Qarabağda yaşayan ermənilərdən təşkil olunmuş qanunsuz silahlı dəstələr və Ermənistandan Azərbaycana qanunsuz gətirilmiş hərbi qüvvələr tərəfindən Dağlıq Qarabağ bölgəsinin bir hissəsi olan Şuşa rayonu ərazisində yaşayan azərbaycanlı dinc mülki əhalinin fiziki məhvinə nail olmaq məqsədilə, genişmiqyaslı hücumlar təşkil edilmiş, onların bir qismi öldürülmüş, sağlamlıqlarına ağır zərər vurulmuş, əsir və girov götürülərək dəhşətli işgəncələrə məruz qalmış, evləri yandırılmış, əmlakları talan edilmiş, doğma yurd-yuvalarından qovulmuşlar.

Baş vermiş ayrı-ayrı faktlar üzrə Şuşa rayon prokurorluğu tərəfindən cinayət işləri başlanılmış və müəyyən edilmişdir ki, həmin cinayət hadisələri yuxarıda qeyd olunan hərbi qüvvələr tərəfindən törədilmişdir. İstintaq zamanı erməni quldur dəstələrinin bir sıra üzvləri cinayət məsuliyyətinə cəlb

edilərək, məhkəməyə göndərilmişdir. Məsuliyyətdən qaçıb gizlənməyə imkan tapmış digər üzvləri haqqında olan ayrı-ayrı cinayət işləri, o cümlədən **9 yanvar 1991-ci il tarixdə,** səhər saat $6^{00}$ radələrində 44682 saylı hərbi hissənin kəşfiyyat polkunun komandiri, podpolkovnik Larionov Oleq Mixayloviçin, Laçın rayonunun hərbi komendaturasının qərargah rəisi, mayor İvanov İqor Yuriyeviçin, «Azərbaycan gəncləri» qəzetinin müxbiri Əsgərova Salatın Əziz qızının serjant Qoyek İvan İvanoviçin idarə etdiyi 44682 saylı hərbi hissəyə məxsus «UAZ-469» markalı 30-14 NB dövlət nömrə nişanlı avtomaşınla Laçın rayonundan Şuşa rayonuna gedərkən Yevlax-Laçın yolunun 141-ci km-də, körpünün üstündə naməlum şəxslər tərəfindən müxtəlif növ döyüş silahlarından atəş açılaraq, avtomaşındakı şəxslərin öldürülmələri faktı üzrə başlanmış 34625 saylı cinayət işi bir icraatda birləşdirilərək istintaqı aparılmışdır.

Cinayət işinin icraatı 14 fevral 1992-ci il tarixdə Azərbaycan Respublikası CPM-in 209-cu maddəsinin 1-ci bəndinə (*cinayəti törətmiş şəxs istintaqdan və ya məhkəmədən qaçıb gizləndikdə və ya sair səbəblərdən onun olduğu yer müəyyən edilmədikdə*) əsasən dayandırılmışdır.

25 avqust 2005-ci il tarixdə həmin cinayət işinin dayandırılması barədə qərar ləğv edilərək icraatı təzələnmiş və istintaqı davam etdirilmişdir. İstintaq zamanı cinayət işi Azərbaycan Respublikası CM-in 103-cü (*soyqırım*) maddəsinə tövsif edilmişdir. İstintaq zamanı Azərbaycan Respublikası DİN-in ƏSİİ-nə sorğu göndərilmiş və alınmış cavabdan müəyyən edilmişdir ki, həmin cinayətlə əlaqədar olaraq erməni millətindən olan 12 nəfər 23 mart 1992-ci ildə məhkəmənin hökmü

ilə müxtəlif müddətlərlə azadlıqdan məhrumetmə cəzalarına məhkum olunmuşlar.

25 avqust 2005-ci il tarixdə silahlı quldur dəstəsinin istintaqdan qaçıb gizlənən və əvvəllər barələrində axtarış elan olunmuş aşağıdakı üzvləri - Qulyan Zorik Şurikoviç, Çobanyan Şirak Şoqenoviç, Ohanesyan Xaçatur Sarkisoviç, Balayan Valeri Levonoviç, Arutyunyan Arut Qeorqiyeviç, Qalustyan Janna Qeorqiyevna, Davidyan Seyran Surenoviç, Simonyan Vilen Arnodikoviç, Qriqoryan Slavik Baqratoviç, Sakisyan Qrişa Ağabəyoviç, Arutyunyan Andronik Pavlikoviç və Nəsibyan Varuyan Alekseyeviçin Azərbaycan Respublikası CM-in 103-cü maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaları barədə qərarlar qəbul edilmişdir. Onlar barəsində həbs qətimkan tədbiri seçilməsindən ötrü müvafiq vəsatətlər və təqdimatlar hazırlanmış, sənədlər aidiyyəti üzrə Bakı şəhəri Yasamal rayon məhkəməsinə göndərilmişdir. Məhkəmənin 26 avqust 2005-ci il tarixli qərarına əsasən, onların barəsində həbs qətimkan tədbiri seçilmişdir. 21 noyabr 2005-ci il tarixdə təqsirləndirilən şəxslər barəsində axtarış elan olunmuş və qərarlar axtarış-əməliyyat fəaliyyətini həyata keçirən orqanlara göndərilmişdir.

### *DQMV Dİİ-nin rəisi, general-mayor V.Kovalyova qarşı planlaşdırılmış sui-qəsd faktı ilə bağlı*

19 yanvar 1991-ci il tarixdə Xankəndi şəhərinin sakinləri A.Baqmanyan S.Baqmanyan və A.Antonyan DQMV Daxili İşlər İdarəsinin rəisi general-mayor Vladimir Vladimiroviç Kovalyova

qarşı sui-qəsd planlaşdırmışlar. Ancaq təsadüf nəticəsində general-mayor V.Kovalyov zərər çəkməmişdir. Lakin o, 20 noyabr 1991-ci il tarixdə Qarabağın Dağlıq hissəsindəki Qarakənd kəndinin 5 kilometrliyində erməni terrorçu-quldur dəstələri tərəfindən odlu silahlarla vurularaq partladılmış Mİ-8 MQV hərbi helikopterində həlak olmuş 22 nəfərdən biri olmuşdur.

Sonradan - **8 aprel 1991-ci il** tarixdə Rostov-Don şəhərində SSRİ DİN DQ Şimali Qafqaz İdarəsinin rəis müavini, polkovnik V.Blaxotinin qətlini təşkil etdikləri üçün Rusiya Federasiyası Rostov Vilayəti Məhkəməsinin qərarına əsasən, terrorçular – A.Baqmanyan 15 il, S.Baqmanyan isə 12 il müddətinə azadlıqdan məhrum edilmişlər.

### *Ağdam-Şuşa marşrutu ilə hərəkət edən avtobusa silahlı basqınla bağlı başlanmış 80377/64510 saylı cinayət işi üzrə*

14 mart 1991-ci il tarixdə, saat $8^{30}$ radələrində Cangiryan Yuriy Osipoviç cinayətkar silahlı dəstənin digər üzvləri ilə qabaqcadan əlbir olub cinayət əlaqəsinə girərək, Ağdam şəhərindən Əsgəran qəsəbəsinə gedən yolun yaxınlığında yerləşən qəbiristanlığın yanındakı üzüm sahəsində pusqu qurub Ağdam-Şuşa marşrutu ilə hərəkət edən PAZ-672 markalı, 73-58 AQA dövlət nömrə nişanlı avtobusa odlu silahlardan intensiv və məqsədyönlü atəşlər açaraq silahlı basqın etmiş, nəticədə həmin avtobusda olan 3 azərbaycanlı sərnişin aldığı odlu silah yaralarından həlak olmuş, 2 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır.

Həmin fakt üzrə Əsgəran rayon prokuroru S.Q.Əmiryan tərəfindən Azərbaycan Respublikası CM-in (01.09.2000-ci ilədək qüvvədə olmuş) 94-cü maddəsinin 2-ci (*ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə*) və 4-cü (*iki və ya bir neçə şəxsi öldürmə*) bəndləri ilə 33838 saylı cinayət işi başlanmış, 15 mart 1991-ci il tarixdə həmin prokurorluğun müstəntiqi Q.Səfərov tərəfindən icraata qəbul edilərək istintaqı aparılmışdır.

5 iyun 1991-ci il tarixdə cinayət işi DQMV DİI-nin istintaq qrupunun müstəntiqi V.Sızranov tərəfindən icraata qəbul edilmiş və istintaqı davam etdirilmişdir.

9 avqust 1991-ci il tarixdə cinayətkar silahlı dəstənin başçısı Cangiryan Yuriy Osipoviç keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində yaxalanıb istintaqa təhvil verildiyindən işin icraatı müstəntiq V.Sızranovun həmin tarixli qərarı ilə təzələnərək istintaqı davam etdirilmiş, 12 avqust 1991-ci il tarixdə Y.Cangiryan barəsində həbs qətimkan tədbiri seçilmişdir. 23 avqust 1991-ci il tarixdə cinayət işinin istintaqı üzrə istintaq qrupu yaradılmış və iş müstəntiq E.Əhmədovun icraatına verilməklə istintaqı davam etdirilmişdir. Müstəntiq E.Əhmədovun 9 oktyabr 1991-ci il tarixli qərarı ilə vətəndaş Xanlar Şammədovun Y.Cangiryan və qeyriləri tərəfindən girov götürülməsi barəsində olan 33827 saylı cinayət işi 33838 saylı işə birləşdirilmiş və vahid icraatda istintaqı davam etdirilmişdir.

31 dekabr 1991-ci il tarixdə Cangiryan Yuriy Osipoviç barəsində olan cinayət işi aidiyyəti üzrə məhkəməyə göndərilmiş və Azərbaycan Respublikası Ali Məhkəməsinin 2 aprel 1992-ci il tarixli hökmü ilə o ölüm cəzasına məhkum edilmişdir.

30 dekabr 1991-ci il tarixdə 33827/33838 saylı cinayət işindən ayrılmış materiallar üzrə 21 yanvar 1992-ci il tarixdə

Y.Cangiryanın silahlı cinayətkar dəstəsinin digər üzvləri barəsində 64510 saylı cinayət işi başlanmış və 21 mart 1992-ci il tarixdə Azərbaycan Respublikası CPM-in 209-cu maddəsinin 1-ci (*cinayəti törətmiş şəxs istintaqdan və ya məhkəmədən qaçıb gizləndikdə və sair səbəblərdən onun olduğu yer müəyyən edilmədikdə*) və 3-cü bəndlərinə (*cinayəti törətmiş şəxsin müəyyən olunmamasına görə*) əsasən həmin cinayət işinin icraatı dayandırılmışdır.

18 dekabr 2003-cü il tarixdə Azərbaycan Respublikası Baş prokurorunun, daxili işlər və milli təhlükəsizlik nazirlərinin birgə əmri ilə Dağlıq Qarabağın silahlı separatçı qüvvələri və Ermənistanın hərbi birləşmələri tərəfindən törədilmiş cinayət hadisələrinin istintaqı ilə əlaqədar yaradılmış birgə istintaq əməliyyat qrupunda həmin cinayət işi öyrənilərək 27 oktyabr 2006-cı il tarixdə cinayət işinin dayandırılması barədə 21 mart 1992-ci il tarixli qərar ləğv edilərək işin icraatı təzələnmiş və istintaqı davam etdirilmişdir. İstintaq zamanı cinayət işi Azərbaycan Respublikası CM-in 103 (*soyqırım*), 107 (*deportasiya*) və 113-cü (*işgəncə*) maddələrinə tövsif edilmişdir.

27 oktyabr 2006-cı il tarixdə Stepanyan Xosrov Sarkisoviçin Azərbaycan Respublikası CM-in 113-cü maddəsi (*işgəncə),* Qabrielyan Vazgen Artamonoviç və Ayrapetyan Vaqif Mesropoviç Azərbaycan Respublikası CM-in 103 (*soyqırım*), 107-ci (*deportasiya*) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaları barədə qərarlar çıxarılmış, 28 oktyabr 2006-cı il tarixdə həmin şəxslər barəsində həbs qətimkan tədbiri seçilmişdir və 30 oktyabr 2006-cı il tarixdə axtarış elan olunmuşdur.

27 oktyabr 2009-cu il tarixdə, Əsgəran rayonunun Daşbulaq kənd sakinləri Martirosyan Vladik Xorenoviç Azərbaycan Respublikası CM-in 103 (*soyqırım*), 107 (*deportasiya*) və

113-cü (*işgəncə*) maddələri, Avoqimyan Sosun Armaviroviç Azərbaycan Respublikası CM-in 103 *(soyqırım)*, 107 (*deportasiya*) maddələri, Qevorkyan Vladimir Arşakoviç Azərbaycan Respublikası CM-in 103 (*soyqırım*), 107 (*deportasiya*) maddələri, Mkrtıçyan Kamo Benikoviç Azərbaycan Respublikası CM-nin 113-cü (*işgəncə*) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaları haqqında qərarlar çıxarılmış, barələrində məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçilməklə axtarışları elan edilmiş və sənədlər müvafiq orqanlara göndərilmişdir.

***DİN əməkdaşlarının qətlə yetirilməsi faktına görə başlanmış 24634/33020 saylı cinayət işi üzrə***

**18 aprel 1991-ci il tarixdə**, saat $20^{00}$-da Füzuli rayon mərkəzi xəstəxanasına məxsus olan sürücü Ağayev Əlvan Ərşad oğlunun idarə etdiyi UAZ-452 markalı 91-25 AQM nömrəli avtomaşınla Füzuli rayonunun Yuxarı Divanalılar kəndindəki 1 saylı nəzarət postuna növbətçiliyə gedən DİŞ-in sahə müvəkkili Hümbətov Namiq Həsən oğlu, milis nəfəri İsmayılov Çingiz Ərşad oğlu, SSRİ DİN-in daxili qoşunlarının Füzuli rayonuna ezam olunmuş 3673 saylı hərbi hissəsinin sıravi əsgərləri - İmayev Aynur Rəşidoviç və Şelnikov posta 2 km. qalmış, Xocavənd rayonu Şaumyan kolxozunun ərazisində «Amaras» erməni kilsəsinə 300 metr qalmış avtomat silahlardan və qumbaraatandan intensiv atəşə tutulmuş, nəticədə N.Hümbətov, A.İmayev və Ə.Ağayev ölmüş, Ç.İsmayılov və Şelnikov isə yaralanmışlar.

Fakta görə, 19.04.1991-ci ildə Füzuli rayon prokuroru E.Məcidov tərəfindən AR CM-in (*köhnə redaksiyada*) 94-cü maddəsinin 4, 6-cı bəndləri (*ağırlaşdırıcı hallarda iki və ya bir neçə şəxsi xüsusi amansızlıqla və ya bir çox şəxsin həyatı üçün təhlükəli olan üsulla qəsdən adam öldürmə*) ilə cinayət işi başlanmışdır.

3 sentyabr 1991-ci il tarixdə cinayət işinin icraatı Azərbaycan Respublikası CPM-in 209-cu maddəsinin (köhnə redaksiyada) 3-cü bəndi ilə (*cinayəti törətmiş şəxslərin müəyyən edilməməsinə görə*) dayandırılmışdır.

### *Mİ-8 MQV hərbi helikopterinin odlu silahlarla vurulması faktına görə başlanmış 35270 saylı cinayət işi üzrə*

**20 noyabr 1991-ci il tarixdə** saat $16^{30}$ radələrində Qarabağın Dağlıq hissəsindəki Qarakənd kəndinin 5 kilometrliyində içərisində Azərbaycan Respublikasının rəhbər vəzifəli şəxslərinin, Rusiya və Qazaxıstan müşahidəçilərinin olduğu Mİ-8 MQV hərbi helikopteri odlu silahlarla vurularaq partladılmış, nəticədə 22 nəfər faciəli surətdə həlak olmuşdur:

**1. İsmayılov Tofiq Kazım oğlu –**
Azərbaycan Respublikasının Dövlət Katibi

**2. Qayıbov İsmət İsmayıl oğlu –**
Azərbaycan Respublikasının Baş prokuroru

**3. Hacıyev Zülfi Saleh oğlu –**
Azərbaycan Respublikası Baş nazirinin müavini

**4. Əsədov Məhəmməd Nəbi oğlu –**
Azərbaycan Respublikasının Dövlət Müşaviri

**5. Məmmədov Vəli Hüseyn oğlu –**
SSRİ xalq deputatı

**6. Məmmədov Rafiq Məmməd oğlu –**
Azərbaycan Respublikası Dövlət Katibinin köməkçisi

**7. Namazəliyev Qurban Hüseyn oğlu –**
Azərbaycan Respublikası meliorasiya nazirinin müavini

**8. Mirzəyev Osman Mirzəhüseyn oğlu –**
Azərbaycan Respublikası Prezidenti Aparatının şöbə müdiri

**9. Cəfərov Vaqif Cəfər oğlu –**
Azərbaycan Respublikası tikinti nazirinin müavini

**10. Şahbazov Fəxrəddin İbrahim oğlu –**
Azərbaycan Dövlət Teleradio Şirkətinin operatoru

**11. Hüseynzadə Arif İsmayıl oğlu –**
Azərbaycan Dövlət Teleradio Şirkətinin operatoru

**12. Mustafayev Alı Mustafa oğlu –**
Azərbaycan Dövlət Teleradio Şirkətinin operatoru

**13. Plavski İqor Aleksandroviç –**
Azərbaycan Respublikası DQMV-in prokuroru

**14. Kovalyov Vladimir Vladimiroviç –**
Azərbaycan Respublikası DQMV Dİİ-nin rəisi

**15. İvanov Sergey Semyonoviç –**
Azərbaycan Respublikası DQMV DTK-nın sədri

**16. Serikov Seilau Dosumoviç –**
Qazaxıstan Respublikası Daxili İşlər nazirinin müavini

**17. Lukaşov Mixail Dmitriyeviç –**
General mayor, RSFSR-in nümayəndəsi

**18. Jinkin Nikolay Vladimiroviç –**
Azərbaycan Respublikası DQMV xüsusi rayonunun komendantı

**19. Koçarov Oleq Nikolayeviç –**
podpolkovnik, Sovet ordusunun zabiti

**20. Kotov Vyaçeslav Vladimiroviç –**
helikopterin komandiri

**21. Dolqov Gennadi Vladimiroviç –**
helikopterin heyət üzvü

**22. Yalovenko Dmitriy Borisoviç –**
helikopterin heyət üzvü

Adları sadalanan şəxslərin meyitləri və ya bədən hissələri hadisə yerində aşkar edilmiş, Məhkəmə-Tibbi Ekspertizadan keçirilərək rəylər alınmışdır.

Həmin fakt üzrə 21 noyabr 1991-ci il tarixdə Xankəndi hərbi qarnizon prokuroru İ.A.Lazutkin tərəfindən cinayət işi başlanmış (qərarda cinayət işinin CM-in hansı maddəsi ilə başlanması göstərilməmişdir) və istintaqın davam etdirilməsi üçün həmin ayın 23-də Azərbaycan Respublikası Prokurorluğuna verilmişdir.

Respublika Prokurorluğunun 3 aprel 1992-ci il tarixli qərarı ilə cinayət əməli Azərbaycan Respublikası CM-in (01 sentyabr 2000-ci ilədək qüvvədə olmuş) 59-cu maddəsinə (*terror aktı*) tövsif edilmişdir.

İstintaq zamanı müəyyən edilmişdir ki, Mİ-8 MQV markalı bort nömrəsi 72 olan hərbi helikopter erməni millətindən olan 3 nəfərin pulemyot və avtomat silahlardan açdığı atəş nəticəsində vurulmuşdur.

Belə ki, Xocavənd rayonunda yaşamış Abramyan Benik Sandjanoviç qanunsuz silahlı bandalarda dinc əhaliyə qarşı basqınlarda iştirak etməsinə görə 25.12.1991-ci il tarixdə Azərbaycan Respublikasının 01 sentyabr 2000-ci il tarixədək

qüvvədə olmuş CM-in 70-ci maddəsi (banditizm) ilə ittiham elan edilməklə həbsə alınmışdır.

B.S.Abramyan istintaq zamanı verdiyi ifadəsində qeyd olunan hərbi vertolyotun Qarakənd kənd sovetinin sədri Edik, həmin kənddə sürücü işləmiş Robert, Xocavənd şəhərində taksi sürücüsü işləmiş Lovik adlı şəxslərin iştirak etdiyi silahlı dəstə tərəfindən odlu silahlardan açılmış atəşlər nəticəsində vurulduğunu bildirmişdir.

Lakin, həmin şəxsləri müəyyən edib dindirmək, eləcə də Abramyanın ifadəsini ətraflı yoxlamaq məlum səbəblərə görə mümkün olmamışdır.

Sonradan Abramyan Xocalı faciəsində erməni quldurları tərəfindən əsir götürülmüş azərbaycanlılarla dəyişdirilmişdir.

Cinayət işinin ibtidai istintaqı 31 dekabr 1994-cü il tarixdə Baş Prokurorluğun xüsusilə ağır cinayətlərin istintaqı şöbəsinin müstəntiqi N.İ.Abbasovun qərarı ilə, Azərbaycan Respublikası CPM-in (1 sentyabr 2000-ci il tarixədək qüvvədə olmuş) 209-cu maddəsinin 3-cü bəndinə əsasən (*cinayəti törətmiş şəxslərin müəyyən edilməməsinə görə*) dayandırılmışdır.

### *«Mİ-8» helikopterinin vurulması faktına görə başlanmış 64516 saylı cinayət işi üzrə*

Cinayət işi **28 yanvar 1992-ci il tarixdə** Şuşa rayonu ərazisində «Mİ-8» helikopterinin Xankəndi ərazisindən ermənilər tərəfindən açılmış atəşlə vurulması nəticəsində 3 nəfər heyət üzvü və 39 nəfər sərnişinin ölməsi faktı üzrə 28 yanvar 1992-ci il tarixdə Azərbaycan Respublikası baş prokuroru yanında

mühüm işlər üzrə müstəntiq F.İ.Hüseynov tərəfindən 01 sentyabr 2000-ci il tarixədək qüvvədə olmuş Azərbaycan Respublikası CM-in 70 *(banditizm)* və 94-cü maddəsinin 4 və 6-cı bəndləri ilə *(xüsusi amansızlıqla, ağırlaşdırıcı hallarda iki və ya bir neçə şəxsi qəsdən öldürmə)* başlanılmışdır.

İstintaqla müəyyən edilmişdir ki, 28 yanvar 1992-ci il tarixdə, təxminən saat $16^{20}$ radələrində Ağdam-Şuşa reysi ilə uçan «AZAL» Azərbaycan Hava Yolları konserninin «AZAL-PANX» Zabrat aviaşirkətinə məxsus Mİ-8 markalı 24137 nömrəli helikopter Xankəndi ərazisində erməni quldur dəstələri tərəfindən odlu silahlardan açılan atəşlə vurulmuş və Şuşa rayonunun Qaybalı kəndinə gedən yerdə partlamışdır. Nəticədə helikopterin 3 nəfərdən ibarət heyət üzvü, komandir - Sereqin Viktor Vasilyeviç, pilot Axundov Səfa Fətulla oğlu, bortmexanik Mahmudov Ərəstun İsfəndiyar oğlu, 39 sərnişin - Abbasov Şahin Əli oğlu, Abbasova Sədaqət Kamran qızı, Abbasova Səadət Şahin qızı, Qasımova Hafizə Vəli qızı, Allahverdiyeva Xuraman Eldar qızı, Zalov Əkrəm Xosrov oğlu, Zalova Bahar İsa qızı, Zalov Namiq Əkrəm oğlu, Quliyev Eldar Musa oğlu, Dünyamalıyev Mürşud Əmralı oğlu, Əliyeva Sara Asif qızı, Əzizov Fazil Xəzri oğlu, Quliyev Zaur Kamal oğlu, İsmayılov Sərxan Dayandur oğlu, Ləzgiyev Şahin Hüseyn oğlu, Hüseynov Saleh Şahlar oğlu, Abbasov Pərviz Şəmsəddin oğlu, Vəliyev Rizvan Yusif oğlu, Qarayev Asif Qarakişi oğlu, Qarayeva Raifə Asif qızı, Qarayev Saleh Asif oğlu, Qarayev Asif Qaraca oğlu, İsmayılov Telman Qəhrəman oğlu, Mehdiyev Fikrət Burza oğlu, İsmayılov Bəhram Mətləb oğlu, Salahov Şakir Şaumyan oğlu, Cavadov Vaqif Əliş oğlu, Cabbarov Xıdır Sədrəddin oğlu, Zeynalova Nazilə İbrahim qızı, Zeynalova

Ramilə İbrahım qızı, Həsənov Camal Əli oğlu, Sevindiyev Ərşad Qara oğlu, Cabbarova Roza Rəhbər qızı, Məmmədov Niyazi Vəliyəddin oğlu, Məmmədov Zaur Qarabala oğlu, Cabbarov Ələddin, Məmmədov Zakir, Mehman adlı və daha bir nəfər istintaqa məlum olmayan şəxs, cəmi 42 nəfər faciəli surətdə həlak olmuşdur.

28 aprel 1992-ci il tarixdə Azərbaycan Respublikası CPM-in 209 maddəsinin 3-cü bəndinə (*cinayəti törətmiş şəxslərin müəyyən olunmamasına görə*) əsasən cinayət işinin istintaqı dayandırılmışdır.

# Erməni terrorçu dairələri və birləşmələri tərəfindən hərbi əməliyyatların getdiyi Dağlıq Qarabağ və cəbhə xəttindən kənar ərazilərdə törədilmiş terror əməlləri:

***Bakı şəhərində 106 saylı marşrut avtobusunda partlayış faktına görə başlanmış 140 saylı cinayət işi üzrə***

Cinayət işi **8 sentyabr 1984-cü il tarixdə** Bakı şəhərində 106 saylı sərnişin avtobusunda törədilmiş partlayış faktına görə, Azərbaycan Respublikasının Baş prokuroru A.T.Zamanov tərəfindən 9 sentyabr 1984-cü il tarixdə 01 sentyabr 2000-ci il tarixədək qüvvədə olmuş Azərbaycan Respublikası CM-in 15,91-ci (*Dövlət əmlakını və ictimai əmlakı qəsdən məhv etmə və zədələməyə cəhd*), və 94-cü maddəsinin 6-cı bəndi ilə (*xüsusi amansızlıqla və ya bir çox şəxsin həyatı üçün təhlükəli olan üsulla qəsdən adam öldürmə*) başlanmış və işin istintaqı Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin İstintaq Şöbəsinə tapşırılmışdır.

Araşdırma prosesində aydın olmuşdur ki, terror əməli Bakı şəhər sakini, milliyyətcə erməni Vartanov Henrix

Surenoviç tərəfindən törədilmişdir. Bu işdə ona Bakı şəhər sakini milliyyətcə rus, 1960-cı il təvəllüdlü Maxovskiy İqor Mixayloviç yardımçı olmuşdur.

İ.Q.Maxovskiy istintaqa verdiyi ifadəsində H.S.Vartanovla 1984-cü ilin mart ayında təsadüfən Bakı şəhərində avtobus dayanacağında tanış olduğunu bildirmişdir. Növbəti görüşlərin birində Vartanov Maxovskiyə partlayıcı qurğu üçün saat mexanizmi hazırlamağı xahiş etmiş, Maxovskiy isə bu təklifi qəbul etmişdir. 1984-cü ilin avqust ayında saat mexanizmi ilə işə düşən partlayıcı qurğunu hazırlayan Maxovskiy, Vartanovun yaşadığı binanın zirzəmisində bir neçə sınaq partlayışı da həyata keçirmişdir.

İ.Q.Maxovskiy tərəfindən hazırlanmış partlayıcı qurğunu əldə etmiş H.S.Vartanov 8 sentyabr 1984-cü il tarixdə, saat $12^{00}$ radələrində 106 saylı marşrut avtobusunun Bakı şəhəri, Montin qəsəbəsinin ərazisində yerləşən sonuncu dayanacağına gedərək onu "İkarus 28001" markalı, 90-11 AQT dövlət nömrə nişanlı avtobusun 5-ci və 6-cı oturacağının arasında yerləşdirmişdir. Elə həmin gün, saat $13^{50}$ dəqiqədə göstərilən avtobus Azərbaycan Politexnik İnstitutunun qarşısından keçərkən partlayış baş vermiş, nəticədə avtobusda olan sərnişin F.İ Surxalizadə ölmüş, Q.D. Mansurova, T.X Mehtiyeva və E.S Zorin isə yaralanmışlar.

Azərbaycan Respublikası Ali Məhkəməsi kollegiyasının 15 mart 1985-ci il tarixli qətnaməsinə əsasən, Maxovskiy İqor Mixayloviç 01 sentyabr 2000-ci il tarixədək qüvvədə olmuş Azərbaycan Respublikası CM-in 15,17,94-cü maddəsinin 4-cü və 6-cı (*iki və ya daha çox şəxsi öldürməyə, xüsusi amansızlıqla və ya bir çox şəxsin həyatı üçün təhlükəli olan üsulla adamı öldürməyə hazırlıq cəhdi*)

bəndləri ilə 15 il müddətinə azadlıqdan məhrum edilmişdir.

Terror əməlini hazırlamış və onu bilavasitə həyata keçirmiş erməni Vartanov Henrix Surenoviç Azərbaycan Respublikası Ali Məhkəməsi kollegiyasının 15 mart 1985-ci il tarixli xüsusi qərardadına əsasən, 01 sentyabr 2000-ci il tarixədək qüvvədə olmuş Azərbaycan Respublikası CPM-in 396 və 397 maddələri ilə (şizofreniya diaqnozu ilə) cinayət məsuliyyətindən azad edilərək məcburi qaydada xüsusi tipli psixiatriya xəstəxanasına müalicəyə göndərilmişdir. Əlbəttə ki, məhkəmənin bu cür qərar qəbul etməsində həmin vaxt SSRİ-nin yüksək dairələrində mövqe tutmuş ermənilərin ciddi təsiri olmuşdur.

Bu ağır cinayət hadisəsi erməni terrorçuları tərəfindən XX əsrin sonlarında Azərbaycan Respublikası ərazisində həyata keçirilmiş ilk terror əməli idi.

***Tbilisi-Bakı marşrutu ilə hərəkətdə olan avtobusda partlayış faktına görə başlanmış 11 saylı cinayət işi üzrə***

**16 sentyabr 1989-cu il tarixdə** saat $13^{10}$ radələrində vətəndaş Bayramov Firuz Məhərrəm oğlunun idarə etdiyi «İkarus-256» markalı 80-09 AQP nömrəli avtobus Tbilisi-Bakı marşrutu ilə hərəkətdə olarkən magistral yolun 285-ci km-də partladılmışdır. Naməlum şəxslər tərəfindən avtobusun salonunda törədilmiş partlayış nəticəsində 53 sərnişindən 5-i ölmüş, 26-sı xəsarət almışdır. Fakt üzrə 16 sentyabr 1989-cu il tarixdə Azərbaycan Respublikası Yevlax rayon prokurorluğu tərəfindən Azərbaycan Respublikası CM-in (1 sentyabr 2000-ci il tarixədək qüvvədə olmuş) 61-ci maddəsi

(*təxribat*) ilə cinayət işi başlanmışdır.

İş üzrə icraat 7 may 1990-cı il tarixdə Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin (DTK) istintaq şöbəsinin xüsusilə mühüm işlər üzrə böyük müstəntiqi S.Bayramovun qərarı ilə Azərbaycan Respublikası CPM-in 209-cu maddəsinin 3-cü bəndinə (*cinayəti törətmiş şəxslərin müəyyən edilməməsinə görə*) əsasən, dayandırılmışdır.

***Şərur rayonu, Sədərək qəsəbəsinə silahlı basqınla bağlı başlanmış 32053 saylı cinayət işi üzrə***

Cinayət işi **19 yanvar 1990-cı il tarixdə** Naxçıvan Muxtar Respublikası, Şərur rayonu, Sədərək qəsəbəsinə Ermənistan Respublikasının Ararat (Dəvəli) rayonu, Yerasx (Arazdəyən) kəndi ərazisindən erməni ekstremistləri tərəfindən silahlı basqınla bağlı, elə həmin gün Şərur rayon prokurorluğunun baş müstəntiqi V.Əhmədov tərəfindən Azərbaycan Respublikasının 01 sentyabr 2000-ci il tarixədək qüvvədə olmuş CM-in 94-cü maddəsinin (*ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə)* 4 (*iki və ya bir neçə şəxsi öldürmə*), 6-cı (*xüsusi amansızlıqla və ya bir çox şəxsin həyatı üçün təhlükəli olan üsulla adam öldürmə*) bəndləri və 91-ci maddənin (*Dövlət əmlakını və ya ictimai əmlakı qəsdən məhv etmə və ya zədələmə*) 3-cü hissəsi (*eyni hərəkətlər ağır nəticələrə səbəb olduqda*) ilə başlanmışdır.

İstintaq araşdırması zamanı şahid ifadələrinə əsasən, sübut edilmişdir ki, 19 yanvar 1990-cı il tarixdə, saat $15^{00}$

radələrində Naxçıvan Muxtar Respublikası, Şərur rayonu, Sədərək qəsəbəsi Ermənistan Respublikasının Ararat rayonunun Yerasx kəndi ərazisindən əvvəlcə müxtəlif çaplı atıcı və artilleriya silahlarından intensiv atəşə tutulmuş, sonra yaxınlıqdakı çaxır zavodu hücumla zəbt edilərək qarət edilmiş, dağıdılmışdır. Hücum və top atəşləri nəticəsində Şərur rayon Polis Şöbəsinin əməkdaşı, kapitan Seyidov Məhərrəm Mirəziz oğlu, vətəndaşlar – Seyidov Mirhəşim Mirsamil oğlu, Əhmədov Etibar Rzaqulu oğlu, Məmmədov Məmməd Əli oğlu, Məmmədov İdris Ələsgər oğlu, o cümlədən həyətlərində oynayan 5 və 8 yaşlı iki qardaş, Nəsirov Malik Tofiq oğlu və Nəsirov Elvin Tofiq oğlu (hər ikisi həyətə düşən top mərmisinin qəlpəsindən), bütövlükdə 7 nəfər qətlə yetirilmiş, 25 nəfər ağır, az ağır və yüngül bədən xəsarətləri almışlar. Nəticədə dövlətin və vətəndaşların əmlakına 20 milyon manatdan artıq ziyan vurulmuşdur. Hətta, erməni ekstremistləri Sədərək qəsəbəsi 1 saylı orta məktəbini də hədəf seçmiş və oranı top atəşinə tutmuşlar. Şagirdlər qısa müddətdə evakuasiya olunduğu üçün tələfat olmasa da, atəş nəticəsində məktəbə 25-30 min manat dəyərində ziyan dəymişdir.

4 iyun 1990-cı il tarixdə Azərbaycan Respublikası CPM-in 209-cu maddəsinin 3-cü bəndinə (*cinayəti törətmiş şəxslərin müəyyən edilməməsinə görə*) əsasən, cinayət işinin istintaqı dayandırılmışdır.

*SSRİ DİN DQ Şimali Qafqaz İdarəsinin*
*rəis müavini, polkovnik V.Blaxotinin*
*qətlə yetirilməsi faktı ilə bağlı*

Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində tutduğu obyektiv mövqeyə görə, erməni quldurlarının tərksilah edilməsi və zərərsizləşdirilməsində müəyyən addımlar atdığı üçün DQMV-in hərbi komendantı general V.Safonovun erməni terrorçuları tərəfindən fiziki məhvinə qərar verilmişdir. Bu məqsədlə **8 aprel 1991-ci il** tarixdə Rostov-Don şəhərində törədilmiş terror aktında səhvən SSRİ DİN DQ Şimali Qafqaz İdarəsinin rəis müavini, polkovnik V.Blaxotin qətlə yetirilmişdir.

Faktla bağlı Rusiya Federasiyasında aidiyyəti üzrə cinayət işi başlanmış və Rostov Vilayəti Məhkəməsinin qərarına əsasən, terrorçular - S.Baqmanyan 12 il, A.Baqmanyan 15 il, K.Akopyan 4 il, K.Yeqiyan 2 il 9 ay azadlıqdan məhrum edilmişlər.

*Azərbaycan Respublikası DQMV üzrə*
*xüsusi komitəsinin rəhbəri*
*Viktor Polyaniçkoya qarşı sui-qəsdlə bağı*

**9 may 1991-ci il tarixdə** Xankəndi şəhərində erməni quldurları tərəfindən Azərbaycan Respublikası DQMV üzrə xüsusi komitəsinin rəhbəri Viktor Polyaniçkoya qarşı təşkil edilmiş sui-qəsd uğursuz nəticələnsə də, V.Polyaniçko izlənərək 1 avqust 1993-cü ildə Şimali Osetiyada öldürülmüşdür.

Onun Osetin səhra komandirləri ilə danışıqlara yollandığı xidməti maşın naməlum şəxslər tərəfindən atəşə tutulmuşdu. Polyaniçkonun meyitində məhkəmə-tibb ekspertləri 15 güllə yarası aşkar etmişlər. Hadisə zamanı onunla birlikdə olmuş Rusiya Federasiyası Vladiqafqaz qarnizonunun rəisi, 42 –ci ordu korpusunun komandiri, general-mayor Anatoliy Koreçskiy və Baş mühafizə antiterror qrupu - "Alfa"nın zabiti, baş leytenant Viktor Kravçuk öldürülmüş, 4 hərbçi isə yaralanmışdır. Cinayəti törədənlər müəyyən olunmamış və öldürülmələrinin səbəbi hələ də açılmamış qalmışdır.

Britaniyalı jurnalist Tom de Vaal özünün "Qara Bağ: Müharibə və sülh arasında" kitabında yazır ki, "Polyaniçko erməni quldurlarının ona Şimali Qafqazda hücumu nəticəsində həlak olmuşdur".

Sov. İKP Mərkəzi Komitəsinin milli məsələlər üzrə keçmiş katibi Andrey Girenko "Vesti az"a intervüsündə bəyan etmişdir ki, Polyaniçkonun mövqeyi nəyin bahasına olursa, olsun birmənalı şəkildə Qarabağı Azərbaycanın tərkibində saxlamaqdan ibarət olmuşdur. Xankəndində işləyərkən ermənilər bir neçə dəfə ona qarşı sui-qəsd təşkil etmişlər.

1990-cı ilin oktyabr-dekabr aylarında SSRİ DİN DQMV-dəki İstintaq-əməliyyat qrupunda çalışmış V.V.Krivopuskov öz xatirələrində yazır:

"Qarabağda ermənilər ona qarşı üç sui-qəsd təşkil etmişdilər. Birinci dəfə onun avtomobili yük maşınları tərəfindən sıxışdırılaraq uçuruma yuvarlandırılmış, lakin, bu vaxt Polyaniçko maşında olmamışdır. Növbəti dəfə dəmir yol vağzalında onun ola biləcəyi qərargah vaqonu partladılmışdır. Lakin Polyaniçko partlayışdan bir neçə dəqiqə əvvəl bayıra çıxdığı

üçün sağ qalmışdır. Üçüncü sui-qəsd isə az qala ona həyatı bahasına başa gələcəkdi. DQMV İcraiyyə Komitəsindəki kabinetində keçirdiyi növbəti iclas zamanı qarşı tərəfdə yerləşən parkdan qumbara atandan atəş açılmış, ancaq möcüzə nəticəsində Viktor Petroviç və digər iştirakçılar xilas olmuşdur. O, güclü kontuziya almış və qulaqları tutulmuşdu[27].

V.Polyaniçkonun Şimali Osetiyada öldürülməsi faktı ilə bağlı aidiyyəti üzrə Rusiya Federasiyası hüquq mühafizə orqanları tərəfindən cinayət işi başlanmış və istintaq aparılmışdır.

### *«Moskva-Bakı» sərnişin qatarının partladılması faktı ilə bağlı*

**30 may 1991-ci il tarixdə** Rusiya Federasiyası Dağıstan Respublikasının Xasavyurd stansiyası yaxınlığında «Moskva-Bakı» sərnişin qatarı partladılmış, nəticədə 11 nəfər həlak olmuş, 22 nəfər yaralanmışdır. Faktla bağlı aidiyyəti üzrə Rusiya Federasiyası hüquq mühafizə orqanları tərəfindən cinayət işi başlanmış və istintaq aparılmışdır[28].

---

[27] https://ru.wikipedia.org/wiki.

[28] Dağlıq Qarabağ: hadisələrin xronikası. 1988-1994-cü illər (DİN-ə daxil olmuş rəsmi məlumatlar əsasında). Bakı, 2002. səh. 25., https://ru.wikipedia.org/wiki.

### *«Moskva-Bakı» sərnişin qatarının partladılması faktı ilə bağlı*

**31 iyul 1991-ci il tarixdə** Dağıstan Respublikasının Temirtau stansiyası yaxınlığında «Moskva-Bakı» sərnişin qatarında yenidən partlayış törədilmiş, nəticədə 16 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır. Faktla bağlı aidiyyəti üzrə Rusiya Federasiyası hüquq mühafizə orqanları tərəfindən cinayət işi başlanmış və istintaq aparılmışdır[29].

### *«Sovetskaya Kalmıkiya" gəmisində törədilmiş partlayış faktına görə başlanmış 39967 saylı cinayət işi üzrə*

Cinayət işi **08 yanvar 1992-ci il tarixdə** Türkmənistandan «Krasnavodsk-Bakı» marşurutu ilə hərəkət edən dəniz bərəsində törədilən terror nəticəsində 23 nəfərin həlak olması, 80 nəfərin yaralanması faktı üzrə Cənub Xəzər rayonlararası Su Nəqliyyatı prokuroru Ç.M.Seyfullayev tərəfindən 01 sentyabr 2000-ci il tarixədək qüvvədə olmuş Azərbaycan Respublikası CM-in 61-ci maddəsi (təxribat) ilə başlanmışdır.

Şahid ifadələrinə əsasən, müəyyən edilmişdir ki, Krasnavodskidən Bakıya yola düşərkən bərəyə biletsiz 3 erməni minmişdir. Araşdırma zamanı həmin ermənilərin bir neçə dəfə bu gəmi ilə Bakı şəhərinə gəlib-getməsi faktı da aşkarlanmışdır.

[29] Dağlıq Qarabağ: hadisələrin xronikası. 1988-1994-cü illər (DİN-ə daxil olmuş rəsmi məlumatlar əsasında). Bakı, 2002. səh. 29., https://ru.wikipedia.org/wiki.

Hadisə 8 yanvar 1992-ci il tarixdə bərə-gəmi Bakı dəniz limanına çatdıqdan sonra, sərnişinlər yüklərini alarkən baş vermişdir. İstintaq araşdırması və təyin edilmiş ekspertiza terror əməlinin törədilməsi faktını təsdiq etsə də, cinayətkarlar müəyyən edilmədiyindən Azərbaycan Respublikası CPM-in müvafiq maddəsi ilə cinayət işinin icraatı dayandırılmışdır.

### *«Kislovodsk-Bakı» sərnişin qatarının partladılması faktı ilə bağlı*

**28 fevral 1993-cü il** tarixdə Rusiya Federasiyasının Şimali Qafqaz ərazisində Qudermes stansiyası yaxınlığında «Kislovodsk-Bakı» sərnişin qatarı partladılmış, nəticədə 13 nəfər həlak olmuş, 12 nəfər yaralanmışdır. Faktla bağlı aidiyyəti üzrə Rusiya Federasiyası hüquq mühafizə orqanları tərəfindən cinayət işi başlanmış və istintaq aparılmışdır[30].

### *Bakı-Astara marşrutu ilə hərəkət edən sərnişin qatarının partladılması faktına görə başlanmış 201 saylı cinayət işi üzrə*

**1 fevral 1994-cü il tarixdə**, saat təxminən $22^{45}$-də Bakı dəmiryolu stansiyasında Bakı - Astara marşrutu üçün nəzərdə tutulmuş 660 saylı sərnişin qatarının 055, 24533 və 25159 saylı

[30] Dağlıq Qarabağ: hadisələrin xronikası. 1988-1994-cü illər (DİN-ə daxil olmuş rəsmi məlumatlar əsasında). Bakı, 2002. səh. 90., https://ru.wikipedia.org/wiki.

vaqonlarının partladılması nəticəsində 3 nəfər - Camalova Şabəyim Əlağa qızı, Mirzəyev Afət Maksud oğlu və Əliyeva Şəfiqə Məmmədəli qızı həlak olmuş, bir neçə şəxs müxtəlif dərəcəli bədən xəsarətləri almış və dövlətə mühüm maddi ziyan dəymişdir.

Faktla əlaqədar olaraq 2 fevral 1994-cü il tarixdə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin İstintaq şöbəsinin rəisi R.Mənsurov tərəfindən Azərbaycan Respublikası CM-in 61-ci maddəsi (təxribat) ilə cinayət işi başlanmışdır.

31 dekabr 1994-cü il tarixdə cinayət işinin istintaqı Azərbaycan Respublikası CPM-in 209-cu maddəsinin 3-cü bəndinə (*cinayət törətmiş şəxslərin müəyyən olunmamasına görə*) əsasən, dayandırılmışdır.

### *Azərbaycan Dəmir yolunun Xudat stansiyasında vaqonun partladılması faktına görə başlanmış 90013 saylı cinayət işi üzrə*

**9 fevral 1994-**cü il tarixdə, saat $20^{40}$-da Azərbaycan Dəmir yolunun Xudat stansiyasının 5-ci yolunda dayanmış vaqonun kompressor qurğusu partladılmış, lakin xoşbəxtlikdən vaqon boş olduğundan ölən olmamışdır. Fakt üzrə Xaçmaz nəqliyyat prokuroru Ə.Q.Həmidov tərəfindən 01 sentyabr 2000-ci il tarixədək qüvvədə olmuş Azərbaycan Respublikası CM-in 61 (təxribat) maddəsi ilə cinayət işi başlanmışdır. Araşdırma zamanı partlayışın əvvəlcədən yerləşdirilmiş partlayıcı qurğu ilə törədildiyi müəyyənləşdirilmişdir.

Lakin cinayəti törətmiş şəxslər müəyyən edilmədiyindən 9 iyun 1994-cü il tarixdə Azərbaycan Respublikası CPM-in 209-cu maddəsi ilə cinayət işinin istintaqı dayandırılmışdır.

### *«Herkules» tipli təyyarənin vurulması faktı ilə bağlı*

İran diplomatlarının ailə üzvlərini Moskvadan Tehrana aparan, İran Hərbi Hava Qüvvələrinə məxsus «Herkules» tipli, C-130 hərbi - nəqliyyat təyyarəsi **17 mart 1994-cü ildə** Dağlıq Qarabağda – Xankəndi şəhəri yaxınlığında Ermənistan hərbi qüvvələri tərəfindən vurulmuşdur. Nəticədə 32 nəfər - 19 sərnişin (9-u uşaq) və 13 heyət üzvü həlak olmuşdur.

Erməni tərəfinin fikrinə görə, təyyarə İrana Rusiya, Gürcüstan və Ermənistan əraziləri üzərindən uçmalı idi. Ancaq o, kursdan cənuba doğru təxminən 100 km kənara çıxmış və Ermənistana deyil, hərbi əməliyyatların getdiyi Dağlıq Qarabağ ərazisinə girmişdir.

İran tərəfi Ermənistanın vitse-prezidenti Qaqik Arutyunyanın təyyarənin idarəetmə sisteminin nasazlığı üzündən idarəetməni itirərək yerə düşməsi fikrini rədd etmişdir. İran Xarici İşlər Nazirliyinin nümayəndələri bəyan etmişlər ki, "təyyarə kursdan çıxandan sonra, naməlum səbəbdən havada partlamışdır". İran tərəfindən yaradılmış komissiya təyyarənin erməni hərbi birləşmələri tərəfindən buraxılmış iki raketlə vurulduğunu təsdiq etmişdir. Ancaq erməni tərəfi guya təyyarənin Azərbaycana məxsus olduğunu güman etdiyinə görə, onun kimə aid olduğunu müəyyənləşdirmək

üçün heyət üzvləri ilə əlaqə yaratmağa cəhd etməmiş və baş verənlərlə bağlı məsuliyyəti öz üzərinə götürməkdən boyun qaçırmışdır. Sonradan - 1994-cü ilin may ayında Ermənistanın vitse-prezidenti Qaqik Arutyunyan İran təyyarəsinin "səhvən vurulduğunu" etiraf etmişdir[31].

### *Bakı Metropoliteninin "20 yanvar" stansiyasında törədilmiş partlayış faktına görə başlanmış 212234 saylı cinayət işi üzrə*

**19 mart 1994-cü il tarixdə** Bakı Metropoliteninin "20 Yanvar" stansiyasında qatarın ön vaqonunun birində baş vermiş partlayış nəticəsində 14 nəfər həlak olmuş, 56 nəfər yaralanmışdır.

29 iyul 1994-cü ildə törədilmiş terrorda şübhəli şəxs qismində AR vətəndaşı, 1961-ci il təvəllüdlü, Qusar rayonunun İmamqulukənd kəndində anadan olmuş milliyyətcə ləzgi Maksimov Rahib Şaval oğlu saxlanılmışdır.

Hadisə üzrə 60 şahid dindirilmiş, 44 məhkəmə-tibb ekspertizası keçirilmişdir. İş üzrə aparılmış əməlliyat-istintaq tədbirləri nəticəsində Qusar rayon sakini Səfərəliyev Alfet Xalid oğlunun törədilmiş cinayətə aidiyyətinin olduğu müəyyənləşdirilmişdir. 10 noyabr 1994-cü ildə Səfərəliyev Alfet Xalid oğlu AR CM-in 220-ci maddəsi ilə (*odlu silahın və partlayıcı maddələrin qeyri qanuni saxlanması, hazırlanması və alqı-satqısı*) təqsirli bilinərək saxlanılmışdır.

Əməliyyat-axtarış tədbirləri nəticəsində toplanmış sübutlar təsdiq etmişdir ki, R.Ş.Maksimov digər şəxslərlə əlbir olaraq

[31] http://grani.ru/Events/Disaster/m.226753.html.

1994-cü ilin fevralında Azərbaycan dövlətinin zəiflədilməsi və Bakıda insanların kütləvi şəkildə məhv olunmasına yönəlmiş cinayətin həyata keçirilməsi üçün birgə planların işlənib hazırlanmasında iştirak etmişdir.

8 dekabr 1994-cü ildə 1960-cı il təvəllüdlü Qusar rayonunun Avara kənd sakini Rəhimxanov Ruslan Daniyal oğlu iş üzrə təqsirləndirilən şəxs qismində cəlb edilmişdir.

Aparılmış təhqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, Maksimov Rahib Şaval oğlu vətəndaş Süleymanov Telman Siracəddin oğlu ilə sövdələşməyə girərək Bakıda terror əməllərinin törədilməsi məqsədilə R.D.Rəhimxanov, A.X.Səfərəliyev və digərlərindən ibarət cinayətkar qrup yaratmışdır. 1994-cü il fevral ayının sonunda R.Ş.Maksimov, T.S.Süleymanov və digərləri Qusar rayonunda yerləşən "Şahnabat" restoranında toplaşaraq 1994-cü ilin mart ayında Bakı şəhərində törədilməsi nəzərdə tutulan cinayətin detallarını müzakirə etmişlər.

19 mart 1994-cü ildə R.Ş.Maksimov, T.S.Süleymanov, A.X.Səfərəliyev, E.Ş.Orucov və Asəf adlı şəxs "Jiquli" markalı avtomaşının saxlanc yerində partlayıcı yerləşdirilmiş 4 paketlə Bakı şəhərinə gəlmişlər. Onlar saat $13^{00}$ radələrində, "20 Yanvar" metrostansiyasının yaxınlığında Qusar şəhər sakini Oqtay Qurbanovla görüşmüşlər. O.Qurbanov R.Ş.Maksimovdan partlayıcı olan paketi götürüb çantasına qoyaraq metroya düşmüşdür. Partlayıcını O.Qurbanova verməmişdən öncə R.Ş.Maksimov partlayıcı qurğunu işə salmışdır. Saat $13^{55}$-də 4kq.800qr. trotil həcmində partlayıcı işə düşərək çoxsaylı insan itkisinə səbəb olmuşdur. Sövdələşmənin digər üzvləri – Səfərəliyev və Orucov "Nizami" metrostansiyasında və Respublika sarayında partlayışlar törətmək niyyətindən imtina

etmiş və bununla da, Bakıda törədilməsi nəzərdə tutulan terror silsiləsinin bir qismi baş tutmamışdır.

Məhkəmə sübut etmişdir ki, terror əməli Ermənistan xüsusi xidmət orqanları tərəfindən hazırlanmış, separatçı «Sadval» ləzgi təşkilatının üzvləri tərəfindən həyata keçirilmişdir. Müəyyən olunmuşdur ki, «Sadval» separatçı təşkilatının həmin fəalları 1992-ci ildən etibarən dəfələrlə Ermənistanda olmuş, bu ölkənin Milli Təhlükəsizlik Baş İdarəsi təşkilatın formalaşmasında, maliyyələşməsində və silahlanmasında yaxından iştirak etmişdir. 1992-ci ilin aprel-may aylarında 30 nəfər milliyyətcə ləzgi olan Azərbaycan vətəndaşı Ermənistanın Nairi rayonunun Lusakert qəsəbəsində yerləşən təlim-məşq bazasında xüsusi terror-təxribat hazırlığı keçmişdir. İstintaq zamanı müəyyənləşdirilmişdir ki, təxribatçılar təlimata uyğun olaraq, «20 Yanvar» stansiyası ilə yanaşı Bakının «Nizami» kinoteatrında, Respublika sarayında və Bakı lampa zavodunda da partlayışlar törətməyi planlaşdırmışlar.

Fakt üzrə Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 61 *(təxribat)* və 94 (*ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə)* maddələri ilə cinayət işi başlanmış və icraatı Bakı Şəhər Prokurorluğuna həvalə edilmişdir.

15 iyul 1994-cü ildə həmin iş istintaqın davam etdirilməsi üçün Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi İstintaq Şöbəsinə göndərilmiş və 18 iyul 1994-cü ildə icraata qəbul olunmuşdur.

Azərbaycan Respublikası Ali Məhkəməsinin 03 may 1996-cı il tarixli hökmü ilə R.Ş.Maksimov və T.S.Süleymanov 15 il, R.N.Bağıyev, M.S.Zöhrabov və digərləri isə 14 il müddətinə azadlıqdan məhrum edilmişlər.

### *«Moskva-Bakı» sərnişin qatarının partladılması faktı ilə bağlı*

**13 aprel 1994-cü il** tarixdə Dağıstan Respublikasının «Daqestanskiye Oqni» stansiyası yaxınlı ğında «Moskva-Bakı» sərnişin qatarı partladılmış, nəticədə 3 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır. Faktla bağlı aidiyyəti üzrə Rusiya Federasiyası hüquq mühafizə orqanları tərəfindən cinayət işi başlanmış və istintaq aparılmışdır[32].

### *Bakı dəmir yol vağzalında partlayış törədilməsi faktına görə başlanmış 208 saylı cinayət işi üzrə*

**C**inayət işi, 27 aprel 1994-cü il tarixdə Xatkovski İqor Anatolyeviçin Azərbaycan Respublikası CM-in 58-ci *(casusluq)*, 61-ci *(təxribat)* maddələri, 220-ci maddəsinin 2-ci hissəsi *(müvafiq icazə olmadan odlu silah, döyüş sursatı, partlayıcı maddələr gəzdirmə, saxlama, hazırlama və ya satma)* ilə təqsirləndirilməsinə dair 190 №-li cinayət işindən ayrılmışdır. Həmin cinayət işindən isə Ohanesyan Caqan Anuşavanoviçin, Simonyan Boris Vazgenoviçin və Qoloyan Aşot Araratoviçin Azərbaycan Respublikası CM-in 17,58 *(casusluqda iştirakçılıq)*, 17,61 *(təxribatda iştirakçılıq)*, 17.15.61-ci *(təxribata hazırlıq*

---

[32] https://ru.wikipedia.org/wiki.

*və iştirakçılıq)* maddələri və 17,67-ci maddəsinin 3-cü hissəsi *(milli və irqi hüquq bərabərliyini pozma bir qrup şəxs tərəfindən edilməsi və ya adamların həlak olmasına və ya başqa ağır nəticələrə səbəb olduqda)* ilə təqsirləndirilmələrinə dair cinayət işi ayrılmışdır.

İş üzrə aparılmış ibtidai istintaq zamanı müəyyən edilmişdir ki, Ermənistan Respublikası vətəndaşları, Ermənistan Respublikası Dövlət Təhlükəsizlik Nazirliyi Baş Kəşfiyyat idarəsinin düşmən ərazisində xüsusi əməliyyatlar üzrə şöbə rəisi Ohanesyan Caqan Anuşavanoviç, bu qurumun əks kəşfiyyat bölməsinin rəhbəri Qoloyan Aşot Araratoviç və Rusiya Federasiyasının vətəndaşı – Rusiya Federal Təhlükəsizlik Xidməti Təxribata qarşı mübarizə İdarəsinin əməkdaşı Simonyan Boris Vazgenoviçlə qabaqcadan əlbir olaraq cinayət əlaqəsinə girməklə, 1990-cı ilin fevral ayında Rusiya Federasiyasının vətəndaşı Xatkovski İqor Anatolyeviçi «Kotovski» ləqəbi altında məxfi əməkdaşlığa cəlb etmişlər. Adları sadalanan şəxslər odlu silahlardan və silah qismində tətbiq olunan əşyalardan istifadə etməklə Azərbaycan Respublikasında ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət hakimiyyəti orqanları tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər yetirilməsi, əhəmiyyətli əmlak ziyanının vurulması, o cümlədən Bakı şəhərində ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətmək məqsədilə, həmin ilin avqust ayınadək Azərbaycan Respublikasında terrorçuluq və terrorçuluğu maliyyələşdirməni təşkil edərək ona rəhbərlik etmişlər.

C.A.Ohanesyan, B.V.Simonyan və A.A.Qoloyan əməkdaşlığa cəlb etdikləri İ.A.Xatkovski ilə məxfi görüşlər keçirmiş, sonuncuya terrorçuluq cinayətlərini həyata keçirmək üçün tapşırıqlar vermiş, onu xüsusi xidmət orqanlarının metod və üsulları barədə təlimatlandırmış, lazımı vəsaitlərlə təchiz etmiş, görülmüş işlər barədə yazılı hesabatlar almış, pul mükafatları vermiş, onun səfər və mehmanxana xərclərini təmin etmişlər. C.A.Ohanesyan və A.A.Qoloyan 1993-cü ilin may ayının axırlarında Yerevan şəhərinin «Ani» mehmanxanasında Azərbaycan Respublikasında terrorçuluq cinayəti törətmək məqsədi ilə İ.A.Xatkovskiyə müəyyən miqdarda partlayıcı maddələr və digər vasitələr vermiş, sonuncu isə onların bir hissəsini Bakı şəhərinə gətirmişdir.

İ.A.Xatkovski 9 ədəd 200 qramlıq partlayıcı maddə, 2 ədəd partladıcı və 2 ədəd mina partlayıcılarından istifadə edərək hazırladığı qurğunu **2 iyun 1993-cü il tarixdə** Bakı şəhərində sərnişin stansiyasının şimal texniki parkının 5-ci yolunda dayanmış 13841 saylı kupe vaqonuna yerləşdirmiş və həmin gün saat $21^{30}$ radələrində partlayış törətmişdir.

C.A.Ohanesyan özü, eyni zamanda B.V.Simonyanın, A.A.Qoloyanın və istintaqa məlum olmayan digər şəxslərin vasitəsi ilə terrorçuluq cinayətlərinin yerinə yetirilməsi məqsədilə çəkilən xərclərə görə İ.A.Xatkovskiyə qəbzlə cəmi 470.000 rubl pul vermişdir.

22 iyun 1994-cü il tarixdə Ohanesyan Caqan Anuşavanoviç, Simonyan Boris Vazgenoviç və Qoloyan Aşot Araratoviçin barələrində Azərbaycan Respublikası CM-in 17,58 (*casusluqda iştirakçılıq*), 17,61 (*təxribatda iştirakçılıq*), 17,15,61 *(təxribata hazırlıq və iştirakçılıq)* və 17,67-ci maddəsinin 3-cü hissəsi

(*milli və irqi hüquq bərabərliyini pozma, bir qrup şəxs tərəfindən edilməsi və ya adamların həlak olmasına və ya başqa ağır nəticələrə səbəb olduqda*) ilə təqsirləndirilən şəxs qismində cəlb olunmalarına, 5 aprel 1996-cı il tarixdə həbs və etap edilmələrinə, 4 sentyabr 1996-cı il tarixdə isə barələrində axtarış elan olunmalarına dair qərarlar qəbul edilmişdir.

Bundan başqa, 5 oktyabr 1993-cü il və 16 fevral 1994-cü il tarixdə Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən Rusiya Federasiyası Baş Prokurorluğuna faktla bağlı rəsmi sənədlər göndərilmişdir. 12 may 1994-cü il tarixdə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti İdarəsində C.A.Ohanesyan, B.V. Simonyan, A.A.Qoloyan və İ.A.Xatkovski haqqında cinayət işi başlanmış və 20 may 1994-cü il tarixdə cinayət işi aidiyyəti üzrə Rusiya Federasiyası Baş Hərbi Prokurorluğuna göndərilmişdir.

11 mart 1996-cı il tarixdə Rusiya Federasiyası Tambov qarnizonu hərbi məhkəməsinin hökmü ilə Ermənistan Respublikası Dövlət Təhlükəsizlik Nazirliyi Baş Kəşfiyyat idarəsinin şöbə rəisi Ohanesyan Caqan Anuşavanoviç, 1993-cü ilin fevral ayında Rusiya Federasiyasının vətəndaşı olan Xatkovski İqor Anatolyeviçi məxfi əməkdaşlığa cəlb edərək, sonuncunun odlu silahlardan və silah qismində istifadə olunan əşyalardan istifadə etməklə 19 may 1993-cü il tarixdə Dərbənd şəhərində yük vaqonunun altına partlayıcı maddə qoyduğuna və müvafiq icazə olmadan odlu silah, döyüş sursatı, partlayıcı maddələr gəzdirdiyinə, saxlamasına və hazırlamasına görə Rusiya Federasiyası CM-in 15,86-cı maddəsi (*dəmir yol xətlərini və nəqliyyat vasitələrini sıradan çıxarmaq cinayətinə sui-qəsd)* və 218-ci maddəsinin 1-ci hissəsi *(müvafiq icazə olmadan odlu silah, döyüş sursatı, partlayıcı maddələr gəzdirmə, saxlama, hazırlama və ya satma)* ilə

təqsirli bilinərək 6 il, Simonyan Boris Vazgenoviç və Qoloyan Aşot Araratoviç isə Rusiya Federasiyası CM-in 218-ci maddəsinin 1-ci hissəsi (*müvafiq icazə olmadan odlu silah, döyüş sursatı, partlayıcı maddələr gəzdirmə, saxlama, hazırlama və ya satma*) ilə təqsirli bilinərək 2 il və 1 il 6 ay azadlıqdan məhrum etmə cəzalarına məhkum olunmuşlar.

A.Qaloyanın və C.Oqanesyanın Azərbaycana gətirilməsi və məsuliyyətə cəlb edilməsi barədə Azərbaycan tərəfinin vəsatəti Rusiya tərəfindən təmin edilməmişdir.

5 sentyabr 1996-cı il tarixdə Azərbaycan Respublikası CPM-in 209-cu maddəsinin 1-ci bəndinə əsasən (*təqsirləndirilən şəxsin istintaqdan və məhkəmədən gizləndikdə və ya başqa səbəblərə görə onun yeri müəyyən olunmadıqda*) 208 saylı cinayət işinin icraatı dayandırılmışdır.

19 oktyabr 2006-cı il tarixdə Azərbaycan Respublikası Baş prokurorunun müavini, Azərbaycan Respublikası Hərbi prokuroru tərəfindən 5 sentyabr 1996-cı il tarixli qərar ləğv edilmiş, işin icraatı təzələnmiş və istintaqın aparılması 18 dekabr 2003-cü il tarixdə Dağlıq Qarabağın silahlı separatçı qüvvələri və Ermənistanın hərbi birləşmələri tərəfindən törədilmiş cinayət hadisələrinin istintaqı ilə əlaqədar yaradılmış birgə istintaq-əməliyyat qrupunun rəhbəri İ.Məmmədova həvalə edilmişdir.

Həmin tarixdə C.A.Ohanesyan, B.V.Simonyan və A.A.Qoloyanın Azərbaycan Respublikası CM-in 214.1, (*terrorçuluq*) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələri haqqında qərarlar qəbul olunmuşdur. 26 oktyabr 2006-cı il tarixdə Bakı şəhər Yasamal rayon məhkəməsi tərəfindən hər üçünün haqqında həbs qətimkan tədbiri seçilmiş və barələrində axtarış elan olunmuşdur.

***Bakı metropoliteninin «28 May» – «Gənclik» dayanacaqları arasında hərəkət edən qatarda partlayış baş verməsi faktına görə başlanmış 68477 saylı cinayət işi üzrə***

**3 iyul 1994-cü il tarixdə** saat $08^{30}$ radələrində Bakı metropoliteninin «28 May» - «Gənclik» stansiyaları arasındakı tuneldə hərəkət edən qatarın ikinci vaqonunda baş vermiş partlayış nəticəsində qatarın bütün vaqonları sıradan çıxmış, 13 sərnişin həlak olmuş, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

Fakt üzrə 3 iyul 1994-cü il tarixdə Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən Azərbaycan Respublikası CM-in 61 *(təxribat)* və 94-cü maddəsinin 4-cü bəndi *(ağırlaşdırıcı hallarda iki və ya bir neçə şəxsi qəsdən öldürmə)* ilə cinayət işi başlanaraq istintaq aparılmışdır.

Həmin cinayətin törədilməsinə görə, 3 oktyabr 1994-cü il tarixdə Rusiya Federasiyasının hüquq mühafizə orqanları tərəfindən Aslanov Azər Salman oğlu saxlanılmış və sonuncuya RF CM-in 213-3-cü maddəsinin 3-cü hissəsi ilə ittiham elan olunaraq haqqında həbs qətimkan tədbiri seçilmişdir. RF-də başlanmış 69 saylı cinayət işi 29 noyabr 1997-ci il tarixdə bu ölkənin Federal Təhlükəsizlik Xidməti tərəfindən Azərbaycan Respublikası Baş Prokurorluğunda istintaq olunan cinayət işinə birləşdirilməsi üçün Azərbaycana göndərilmişdir.

İstintaq prosesində müəyyən edilmişdir ki, terror əməli Azərbaycan Respublikasının vətəndaşı, Dağlıq Qarabağ uğrunda

gedən döyüşlər zamanı - 13 yanvar 1994-cü ildə əsir düşmüş və Ermənistan xüsusi xidmət orqanları tərəfindən məxfi əməkdaşlığa cəlb edilmiş Aslanov Azər Salman oğlu tərəfindən törədilmişdir. Məhkəmə araşdırması müəyyən etmişdir ki, 14 yanvar 1994-cü ildə erməni separatçılarının ideoloqlarından biri, yazıçı Zori Balayan hərbi əsir, milliyyətcə ləzgi Azər Aslanovla görüşmüş, azərbaycanlılara qarşı mübarizədə bütün azsaylı xalqların birgə fəaliyyət göstərmələrinin vacibliyini bildirmişdir. 9 iyun 1994-cü ildə Ermənistan xüsusi xidmət orqanlarının Artur adlı əməkdaşı A.Aslanovun Bakı şəhərindəki mənzilinə zəng vuraraq onun sağ olduğunu ailəsinə bildirmiş və azad olunması üçün yaxın qohumlarından birinin Yerevan şəhərinə gəlməsinin zəruriliyini qeyd etmişdir.

Məcburiyyət qarşısında qalan A.Aslanovun anası Tacibat Aslanova 16 iyun 1994-cü il tarixdə Yerevana getmişdir. Azər Aslanova anasının həyatının təhlükə altında olduğu bildirilmiş, bu təhdidlər altında o, Ermənistan xüsusi xidmət orqanları ilə «Ömər-75» təxəllüsü ilə daimi əməkdaşlığa cəlb edilmişdir. Azərbaycana maneəsiz gəlməsi üçün A.Aslanovun adına saxta sənədlər hazırlanmış, partlayıcı maddə isə müvafiq qaydada peçenye, şokolad və dezodorant qutularında gizlədilmişdir.

A.Aslanov «Yerevan-Mineralnıye Vodı-Bakı» marşrutu ilə Azərbaycana gələrək, 3 iyul 1994-cü ildə Bakı metrosunun «28 May» və «Gənclik» stansiyaları arasında hərəkət edən qatarda terror həyata keçirdikdən və yenidən Ermənistana qayıtdıqdan sonra Yerevanda girov saxlanılan anası azad olunmuşdur.

İstintaq zamanı müəyyən edilmişdir ki, terror aktının təlimatçıları Ermənistan xüsusi xidmət orqanlarının

polkovniki Karen Baqdasaryan və kapitan Seyran Sarkisyan olmuşdur. Azərbaycan Respublikasında aparılmış istintaq zamanı A.Aslanovun cinayət əməli tam sübuta yetirilərək ona Azərbaycan Respublikası CM-in 57 (*vətənə xəyanət*), 61 (*təxribat*), 71 (*kontrabanda*), 94-cü maddəsinin 4-cü bəndi (*ağırlaşdırıcı hallarda iki və ya bir neçə şəxsi qəsdən öldürmə*) və 220-ci maddəsinin 1-ci hissəsi (*müvafiq icazə olmadan odlu silah, döyüş sursatı və ya partlayıcı maddələr gəzdirmə, saxlama, əldəetmə*) ilə ittiham elan edilmiş və cinayət işi baxılması üçün Azərbaycan Respublikası Ali Məhkəməsinə göndərilmişdir. Azərbaycan Respublikası Ali Məhkəməsi Kollegiyasının 29 aprel 1994-cü il tarixli hökmü ilə Azər Aslanov ömürlük həbs cəzasına məhkum edilmişdir.

Ermənistan və Dağlıq Qarabağ xüsusi xidmət orqanlarının əməkdaşları Baqdasaryan Karen, Aqvan və qeyriləri barədə isə 26 fevral 1998-ci il tarixdə Azərbaycan Respublikası CM-in 61 (*təxribat*) və 94-cü maddəsinin 4-cü bəndi (*ağırlaşdırıcı hallarda iki və ya bir neçə şəxsi qəsdən öldürmə*) ilə 68477 №-li cinayət işinin icraatı ayrılmış, 26 aprel 1998-ci il tarixdə Azərbaycan Respublikası CPM-in 209 maddəsinin 1-ci bəndinə (*təqsirləndirilən şəxsin olduğu yer müəyyən olunmadığında*) əsasən, işin icraatı dayandırılmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasında cinayət işinə mahiyyəti üzrə baxılarkən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin sakini Zori Balayanın təxribat aktının təşkilatçısı olması müəyyən edilmiş və məhkəmə kollegiyasının 29 aprel 1998-ci il tarixli qərardadı ilə Zori Balayan barəsində Azərbaycan Respublikası CM-in 17,61 (*təxribatda iştirakçılıq*) və 17,94-cü maddəsinin

4-cü bəndi (*ağırlaşdırıcı hallarda iki və ya bir neçə şəxsi qəsdən öldürməkdə iştirakçılıq*) ilə cinayət işi başlanılaraq Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq idarəsinə göndərilmişdir.

Bundan sonra, yəni 9 may 1998-ci il tarixdə həmin cinayət işləri bir icraata birləşdirilmiş və 9 iyun 1998-ci il tarixdə Balayan Zori Qaykoviçin və Baqdasaryan Karen Robikoviçin Azərbaycan Respublikası CM-in 57 *(vətənə xəyanət), 17,61 (təxribatda iştirakçılıq)* və 17,94-cü maddəsinin 4-cü bəndi *(ağırlaşdırıcı hallarda iki və ya bir neçə şəxsi qəsdən öldürməkdə iştirakçılıq)* ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələri haqqında qərarlar qəbul edilmişdir. Lakin onları cinayət məsuliyyətinə cəlb etmək mümkün olmadığı üçün barələrində həbs qətimkan tədbirləri seçilməklə axtarışları elan edilmişdir.

Z.Q.Balayan və digərlərinin yeri müəyyən edilmədiyi üçün 23 aprel 1998-ci il tarixdə Azərbaycan Respublikası CPM-in 209 maddəsinin 1-ci bəndinə əsasən, (*təqsirləndirilən şəxsin olduğu yer müəyyən olunmadığında*) işin icraatı dayandırılmışdır.

11 may 2004-cü il tarixdə istintaq-əməliyyat qrupuna Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyindən daxil olmuş 05.05.2004-cü il tarixli 10/971 saylı məktubda bildirilmişdir ki, 3 iyul 1994-cü il tarixdə Bakı metropolitenində törədilmiş terror aksiyasının təşkilatçılarından biri kimi axtarılan «Levon» adlı şəxsin – 1965, 1967-ci illərdə Şuşa rayonunun Daşaltı kəndində anadan olmuş milliyyətcə erməni, Azərbaycan Respublikasının vətəndaşı, Xankəndi şəhəri, Özbəkistan küçəsi, ev 29-da yaşamış Mirzoyan Levon Vaqarşakoviç olduğu müəyyənləşdirilmişdir.

Bununla əlaqədar Azərbaycan Respublikası Baş prokurorunun 1-ci müavininin 16 iyun 2004-cü il tarixli qərarı ilə 68477 saylı cinayət işi üzrə icraatın dayandırılmasına dair 30 dekabr 2003-cü il tarixli qərar ləğv edilmiş, işin icraatı təzələnmiş və istintaqın aparılması birgə istintaq-əməliyyat qrupunun rəhbəri M.Cabbarova həvalə olunmuşdur.

İş üzrə istintaqla müəyyən edilmişdir ki, Azərbaycan Respublikası vətəndaşı Mirzoyan Levon Vaqarşakoviç qəsdən düşmən tərəfinə keçərək və dövlətə xəyanət etməklə Azərbaycan Respublikasının müdafiə qabiliyyətini və iqtisadi təhlükəsizliyini zəiflətmək məqsədilə Balayan Zori Qaykoviç, Baqdasaryan Karen Robikoviç, Ermənistan və Dağlıq Qarabağın xüsusi xidmət orqanlarının digər üzvləri ilə əlbir olub cinayət əlaqəsinə girərək, yolların, əlaqə vasitələrinin, yəni metro stansiyalarının, qatarların dağıdılmasına və zədələnməsinə yönələn partlayış törədilməsini, iki və daha çox şəxsin qəsdən öldürülməsini təşkil etmişdir.

İstintaq zamanı L.V.Mirzoyanın hazırda Ermənistan hərbi birləşmələri tərəfindən işğal olunmuş Azərbaycan Respublikasının Xankəndi şəhərində yaşadığı müəyyən edildiyi üçün onu cinayət məsuliyyətinə cəlb etmək mümkün olmamışdır.

16 iyun 2004-cü il tarixdə L.V.Mirzoyanın Azərbaycan Respublikası CM-in 32,120.2.7, *(iki və daha çox şəxsi qəsdən öldürməkdə iştirakçılıq)* 274 (*dövlətə xəyanət*), 32,282-ci (*təxribatda iştirakçılıq*) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar qəbul edilməklə, 17 iyun 2004-cü il tarixdə Bakı şəhər Səbail rayon məhkəməsi tərəfindən haqqında həbs qətimkan tədbiri seçilmiş, barəsində axtarış elan olunmuşdur.

*Bakı şəhərində yerləşən "Təzə Pir" məscidində partlayış planlaşdırılması faktına görə başlanmış 69537 saylı cinayət işi üzrə*

30 iyun 1994-cü il tarixdə, Bakı şəhərindəki "Təzə Pir" məscidinin yaxınlığında polis post patrul xidməti tərəfindən şübhəli şəxs qismində saxlanmış Rusiya Federasiyasının vətəndaşı, 1968-ci il təvəllüdlü Orexov Roman Anatolyeviç pasportu olmadığı üçün **3 iyul 1994-cü il tarixdə** Bakı metropoliteninin «28 May» - «Gənclik» stansiyaları arasındakı tuneldə hərəkət edən elektrik qatarında törədilmiş partlayış faktı ilə bağlı başlanmış 68477 saylı cinayət işi çərçivəsində dindirilməyə cəlb edilmişdir.

Dindirmə zamanı Roman Orexov Rostov şəhərində ermənilər tərəfindən əməkdaşlığa cəlb edildiyini və Azərbaycan Respublikasının ərazisində terror əməli törətmək barədə tapşırıq aldığını etiraf etmişdir. Buna görə, Azərbaycan Respublikası Baş Prokurorluğu istintaq qrupunun rəhbəri N.M.Həsənov tərəfindən faktla bağlı 29 dekabr 1994-cü il tarixdə 69537 saylı cinayət işi başlanmışdır.

İstintaq araşdırması zamanı R.Orexov bildirmişdir ki, Rostov şəhərində tanış olduğu, özünü Romik və Qarik kimi təqdim etmiş ermənilər onun işsiz olması faktından istifadə edərək əvvəlcə ona ayda 5000 ABŞ dolları müqabilində Dağlıq Qarabağda döyüşməyi təklif etmişlər. Sonradan isə onlar əsas məqsədlərini qəbul etdirərək onu Azərbaycanda terror əməlləri törətməyə razı salmışlar. Təklifi qəbul etmiş

R.Orexov 17 iyun 1994-cü il tarixdə qatarla Siyəzən şəhərinə gəlmişdir. Burada o Sovet Ordusu sıralarında birlikdə xidmət etdiyi əsgər yoldaşı, Siyəzən şəhər sakini Şirin Əliyevlə görüşməli imiş, lakin Ş.Əliyevin Rusiya ərazisində yaşadığını öyrəndikdən və bir neçə gün Siyəzəndə qaldıqdan sonra Bakı şəhərinə gəlmişdir. R.Orexov verilmiş konkret tapşırığa əsasən, Siyəzən şəhərindəki su anbarını zəhərləməli, Bakı şəhərindəki "Təzə Pir" məscidində dini ayin zamanı partlayış törətməli imiş.

Azərbaycan Respublikası Ali Məhkəməsinin 5 yanvar 1996-cı il tarixli hökmünə əsasən, Orexov Roman Anatolyeviç 8 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuşdur.

# Erməni terrorçu-quldur birləşmələri tərəfindən törədilmiş terror əməllərinə aid fotofaktlar:



Foto 1. 16 sentyabr 1989-cu il.
«Tbilisi-Bakı» sərnişin avtobusunda törədilmiş terror əməli.



Foto 2. 16 sentyabr 1989-cu il.
«Tbilisi-Bakı» sərnişin avtobusunda törədilmiş terror əməlinin qurbanı.



terror əməlinin qurbanı.




Foto 4. 18 fevral 1990-cı il.
«Şuşa-Bakı» sərnişin avtobusunda törədilmiş terror əməli.



«Tbilisi-Ağdam» sərnişin avtobusunda törədilmiş terror əməli.



Foto 6. 10 avqust 1990-cı il.
«Tbilisi-Ağdam» sərnişin avtobusunda törədilmiş
terror əməlinin qurbanı.



sərnişin avtobusunda törədilmiş terror əməlinin qurbanı.



Foto 8. 09 yanvar 1991-ci il.
«Молодежь Азербайджана» qəzetinin müxbiri Salatın Əsgərova və 3 rus hərbi qulluqçusunun olduğu avtomobilə qarşı törədilmiş terror əməli.

Foto 9.
09 yanvar 1991-ci il.
« Молодежь
Азербайджана»
qəzetinin müxbiri
Salatın Əsgərova və 3
rus hərbi qulluqçusunun
olduğu avtomobilə qarşı
törədilmiş terror əməli.





Foto 10. 30 may 1991-ci il. Rusiya Federasiyası Dağıstan Respublikasının Xasavyurd stansiyası yaxınlığında «Moskva-Bakı» sərnişin qatarında törədilmiş terror əməli.



sərnişin qatarında törədilmiş terror əməlinin qurbanı.



Foto 12. 31 iyul 1991-ci il tarixdə Dağıstan Respublikasının Temirtau stansiyası yaxınlığında, «Moskva-Bakı» sərnişin qatarında törədilmiş terror əməlinin qurbanı.



sərnişin qatarında törədilmiş terror əməlinin qurbanı.



Foto 14. 20 noyabr 1991-ci il. Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında erməni terrorçuları tərəfindən atəşə tutulmuş «Mİ-8» helikopteri.



Foto 15. 20 noyabr 1991-ci il. Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında erməni terrorçuları tərəfindən atəşə tutulmuş «Mİ-8» helikopteri.



Foto 16. 08 yanvar 1992-ci il.Türkmənistandan «Krasnovodsk-Bakı» marşrutu ilə hərəkət edən dəniz bərəsində törədilmiş terror əməli.



Foto 17. 08 yanvar 1992-ci il.Türkmənistandan «Krasnovodsk-Bakı» marşrutu ilə hərəkət edən dəniz bərəsində törədilmiş terror əməli.



Foto 18. 01 fevral 1994-cü il Bakı dəmiryolu vağzalı. «Kislovodsk-Bakı» qatarında törədilmiş terror əməli.



Foto 19. 19 mart 1994-cü il. Bakı metropoliteninin «20 Yanvar» stansiyasında törədilmiş terror əməli.



Foto 20. 19 mart 1994-cü il. Bakı metropoliteninin «20 Yanvar» stansiyasında törədilmiş terror əməli.



Foto 21. 03 iyul 1994-cü il. Bakı metropoliteninin «28 May» və «Gənclik» stansiyaları arasında elektrik qatarında törədilmiş terror əməli



Foto 22. 03 iyul 1994-cü il. Bakı metropoliteninin «28 May» və «Gənclik» stansiyaları arasında elektrik qatarında törədilmiş terror əməli.

# Xocalı əhalisinə qarşı soyqırımının törədilməsini təsdiq edən fotofaktlar:



























Foto: Viktoriya İvleva



Foto: Viktoriya İvleva. Bu səhər Xocalıda belə açıldı. Ermənilər Xocalı şəhərində, yaşadıqları evlərin yanında qətlə yetirdikləri azərbaycanlıların hələ hərarəti soyumamış meyitləri üzərindən onlara məxsus ev əşyalarını talan edib aparırlar. Budur dünyanın "qədim və mədəni milləti".

# Biblioqrafiya

**Mənbələr:**


1. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının aidiyyəti materialları (1993-2014-cü illərə aid)
2. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin aidiyyəti arxiv materialları
3. 11 saylı cinayət işi
4. 38 saylı cinayət işi
5. 14 saylı cinayət işi
6. 102004 saylı cinayət işi
7. 33028 saylı cinayət işi
8. 38/33063 saylı cinayət işi
9. 32053 saylı cinayət işi
10. 44/33013 saylı cinayət işi
11. 29187 saylı cinayət işi
12. 68 saylı cinayət işi
13. 18/35208-91 saylı cinayət işi
14. 80377/35277 saylı cinayət işi
15. 80377/64510 saylı cinayət işi
16. 24634/33020 saylı cinayət işi
17. 35270 saylı cinayət işi
18. 39967 saylı cinayət işi
19. 64516 saylı cinayət işi
20. 201 saylı cinayət işi

21. 90013 saylı cinayət işi
22. 212234 saylı cinayət işi
23. 208 saylı cinayət işi
24. 68477 saylı cinayət işi
25. 69537 saylı cinayət işi
26. 140 saylı cinayət işi

# Ədəbiyyat


1. Azərbaycan Respublikasının Cinayət məcəlləsi
(1 sentyabr 2000-ci il tarixdə qüvvəyə minmişdir) Bakı – 2013

2. Azərbaycan Respublikasının Cinayət məcəlləsi
(1 sentyabr 2000-ci il tarixədək qüvvədə olan) Bakı – 1995

3. Dağlıq Qarabağ: hadisələrin xronikası.
1988-1994-cü illər (DİN-ə daxil olmuş rəsmi məlumatlar əsasında).
Bakı, 2002.

4. Нагорный Карабах: События, факты и цифры Баку-2005

5. Rövşən Mustafayev "Erməni terrorçu və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri" Bakı – 2002

6. "Erməni terroru" Bakı – 2005

7. Ramiz Mehdiyev "Gorus – 2010 absurd teatrı mövsümü" Bakı – 2010

8. Vilayət Quliyev "Azərbaycanda erməni zülmü" Bakı - 1999

9. Anar İsgəndərli "Azərbaycan həqiqətləri 1917-1920" Bakı – 2012

10. Anar İsgenderli. Realities of Azerbaijan: 1917-1920. ABŞ-2011

11. Солмаз Рустамова-Тогиди. Азербайджанские погромы в документах Март 1918 г. Баку. Баку – 2009

12. "Azərbaycanlıların soyqırımı: Tarixin qanlı salnaməsi" Bakı-2012

13. Эрих Файгл «Армянская мифомания» Bakı – 2007

14. Erich Feigl. Armenische Mythomanie. Salzburg, 2007

15. Джастин Маккарти, Каролин Маккарти.
Тюрки и Армяне. Bakı-1996

16. J. McCarthy, C. McCarthy. Turks and Armenians .
Amanual on the Armenian Question. Committee on Education A
ssembly of Turkish American Associations. Washington, D.C. 1989

17. Səmyuel A. Uimz "Ermənistan terrorçu "xristian" ölkənin gizlinləri"

18. Сабир Асадов «Философия реваншизма или Армянская кровожадность» Bakı – 2001

19. Сабир Асадов, Исрафил Мамедов «Терроризм причина и следствие» Bakı – 2001

20. "Исторические факты о деяниях армян на Азербайджанской земле" Bakı – 2009

21. Markar Melkonyan "Mənim qardaşımın yolu" Hyu-York - 2005

# İnternet resursları

1. http://www.human.gov.az
2. http://www.mns.gov.az
3. http://www.ermenisorunu.gen.tr/turkce/sorun/isyan7.html
4. http://az.wikipedia.org
5. http://ru.wikipedia.org/wiki
6. http://www.rizvanhuseynov.com
7. http://tr.wikipedia.org/wiki/ASALA
8. http://www.memo.ru/uploads/files/402.pdf
9. http://mfa.gov.az
10. http://d-pankratov.ru
11. http://grani.ru/Events/Disaster/m.226753.html

**Korrektorlar:**
**Nailə Dadaşova –**
**Nərgiz Əliyeva** – Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qrupunun əməkdaşları

Xətt Nəşriyyatında
çapa hazırlanmışdır.

khatt.neshr@gmail.com

Buraxılışa məsul **Şahin Zülfüqarov**
Texniki redaktor **Fəridə Səmədova**
Dizayner **Ayaz İbrahim**
Səhifələyici **Rüfət Məmmədov**
Korrektor **Leyla Çələbi**

Çapa imzalanmışdır: 12.08.2015. Format 60x88 1/16. Ofset çapı.
Fiziki çap vərəqi 6,25. Tiraj 1000